Günəş Şərqdən doğur!

№ 60 (5341), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 8 aprel 2021-ci il (cümə axşamı)



## 300 manat cəriməsi var

*Doğum haqqında məlumat dərhal TƏBİB-ə ötürülməlidir*

(Səh.9)



# “Hər kəs bilməlidir...”



## Hulusi Akar:

*“Türkiyə Azərbaycanın mənafeyini qorumaqda qərarlıdır”*

(səh.2)

## Şuşa və Laçındakı qərargahlara yeni tapşırıqlar verildi

**Zakir Həsənov Azərbaycan və Türkiyə birgə təliminin təşkili və gedişi ilə maraqlanıb**

(səh.2)



## ✓ Güc də artır, nüfuz da

Yeni saziş Azərbaycan və Türkiyə ordusunun imkanlarını genişləndirəcək

(səh.5)

## ✓ Paşinyan Rusiyanın iştirakı ilə Ermənistanda yeni AES tikilməsini istəyir

(səh.4)

## ✓ Satışa üzərində “Şuşa” yazılan siqaretlər çıxarılıb

Millət vəkili bunu normal qarşıladı, “cinayət deyil” dedi

(səh.9)

## ✓ Daha 37 nəfər vəfat edib

Bir sutkada 2 595 nəfər koronavirusa yoluxub

(səh.8)



## 84 yaşlı məktəb direktoru koronavirusdan ölüb

O, Bakıdakı xəstəxanalardan birində müalicə olunurdu

(səh.9)

## “Ağdamı görəndə mənə elə gəldi ki, qiyamət günündəyəm"

Dini konfessiya rəhbərləri Qarabağda törədilən vandallıqdan dəhşətə gəliblər



(səh.3)



## Sərəncam imzalanıb

### Xocavənd avtomobil yolunun tikintisi üçün 13,6 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən on dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.9-cu yarımbəndində göstərilmiş 13,6 milyon (on üç milyon altı yüz min) manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Şuşa və Laçındakı qərargahlara yeni tapşırıqlar verildi

### Zakir Həsənov Azərbaycan və Türkiyə birgə təliminin təşkili və gedişi ilə maraqlanıb



**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Şuşa, Laçın, Kəlbəcər, həmçinin azad edilmiş digər ərazilərdə dislokasiya olunan birlik və birləşmələrin qərargahları ilə video-konfrans rejimində əlaqə saxlayıb.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Z.Həsənov Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə rabitə qoşunlarının birgə taktiki-xüsusi təlimlərinin gedişi ilə bağlı müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə rabitə qoşunlarının birgə taktiki-xüsusi təlimləri davam edir.

Təlimlərin növbəti mərhələsini izləmək məqsədilə aprelin 7-də təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi rayonuna gələn Z.Həsənov ərazidə açılmış səhra idarəetmə məntəqələrində olub, təlimin təşkili və gedişi ilə maraqlanıb. Müdafiə nazirinə bölmələrimizin sərəncamındakı taktiki-strateji səviyyədə olan ən müasir rabitə avadanlıqları təqdim edilib.

Məruzə edilib ki, təlimlərdə vahid rabitə sisteminin təşkili üzrə tapşırıqlar uğurla icra edilir. Müdafiə naziri Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Artilleriya Qoşunları və Xüsusi Təyinatlı Qüvvələrin komanda-idarəetmə məntəqələri ilə əlaqə saxlayıb, rabitənin dayanıqlığı və fasiləsizliyini yoxlayıb.

**İsmayıl**

## Hüququ pozulmuş pasiyentlərin müraciətlərinə artıq Səhiyyə Nazirliyi baxmayacaq




**Hüquqları pozulan pasiyentlərin müraciət edə biləcəyi qurumların siyahısına TƏBİB də əlavə olunub.**

Bu, Milli Məclisdə müzakirəyə çıxarılacaq "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, hüququ pozulan pasiyentər artıq Səhiyyə Nazirliyinə müraciət etməyəcək.

Belə ki, pasiyentin hüquqları pozulduqda, o, müalicə-profilaktika müəssisəsinin rəhbərliyinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)- TƏBİB-ə və ya qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə biləcək.

## "Hər kəs bilməlidir..."

### Nazir: "Türkiyə Azərbaycanın mənafeyini qorumaqda qərarlıdır"



**"Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında həyat ən qısa zamanda normallaşmalıdır. Bunun üçün bölgənin təhlükəsizliyi vacibdir".**

"Report" xəbər verir ki, bu fikirləri Türkiyənin müdafiə naziri Hulusi Akar azərbaycanlı həmkarı Zakir Həsənovla videoformatda görüş zamanı bildirib.

"Qarabağın minalardan təmizlənməsi üçün əməkdaşlarımızı ora göndərdik, hazırda onlar işləyirlər. Azərbaycanlı qardaşlarımız da bu işi öyrəniblər və bizə dəstək verirlər. İnşallah ən qısa zamanda oralarda təmizləmə işlərini başa çatdırıb həyatın normallaşmasına töhfə verəcəyik. Ölkəmiz, xalqımız və torpağımızın xarici təhdidlərə və təhlükələrə qarşı qorunması bizim üçün çox önəmlidir. Bu mövzuda həmişə hazır olmalıyıq. Türkiyənin Azərbaycanın haqqını və mənafeyini qorumaqda qərarlı olduğunu hər kəsin bilməsi lazımdır", - o deyib.

## Yerevanda polis müxalifətçi qadınları saxlayıb

**Dünən Ermənistan hökuməti binası qarşısında baş nazir Nikol Paşinyanın istefası tələbi ilə aksiya keçirən sağçı "Veto" hərəkatının xanım üzvləri polis tərəfindən saxlanılıb.**



"Report" TASS-a istinadən xəbər verir ki, yerli televiziyaların birbaşa reportaj verdikləri aksiya zamanı həmin qadınlar "torpaqlarımızı təhvil verən, minlərlə uşağımızı ölümə göndərən türkpərəst hökuməti oradan bayıra tullamaq istəyirik" - deyərək binaya yumurta atıblar. Bundan sonra polis onları saxlayıb.

## Qubadlıda növbəti hərbi hissə xidməti-döyüş fəaliyyətinə başladı





**Vətən Müharibəsində düşmən üzərində tarixi qələbənin əldə olunmasından sonra sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə bu ərazilərdə qısa müddət ərzində zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması prosesi intensiv surətdə aparılmaqdadır.**

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, aprel ayının 6-da Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində növbəti hərbi hissə xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bu münasibətlə təşkil olunmuş mərasimdə Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda Vətən Müharibəsində düşmən üzərində tarixi qələbənin əldə olunmasında şərəflə iştirak edən və hazırda işğaldan azad olunmuş dövlət sərhədlərində xidmət aparan hər bir sərhədçi zabitin, gizirin, çavuşun və əsgərin hərbi vətənpərvərlik ruhunun yüksək olması, Vətən sərhədlərinin keşiyində qürurla xidmət etmələri bildirilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərimizin mühafizəsinə göstərdiyi yüksək etimadı doğrultmaq üçün sərhədçilərin bundan sonra da səy və bacarıqlarını əsirgəməyəcəkləri vurğulanıb. Tədbirin sonunda hərbi orkestrin müşayiəti ilə şəxsi heyət təntənəli marşla tribunanın önündən keçmiş və xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş hərbi qulluqçular təltif olunublar.

Mərasimdə iştirak edənlər hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə, o cümlədən inzibati bina və təlim mərkəzi, eləcə də şəxsi heyətin iş otaqları, kazarma və yeməkxana, təlim sinifləri, hamam-camaşırxana kompleksi, anbar, silah və texniki vasitələr, avtomobil texnikası ilə tanış olmuşlar. Kompleks daimi su, elektrik enerjisi və digər zəruri avadanlıqlarla təmin edilib.

Geniş imkanlara malik olan təlim mərkəzi müxtəlif cür atıcı silahlardan, minomyot qurğularından, zirehli texnikalardan atışların keçirilməsinə və atışların nəticələrinin qiymətləndirilməsinə, bölmələrin döyüş hazırlığının yüksəldilməsinə və Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin mövcud olan silah və döyüş texnikasından istifadə etmə bacarıqlarının yüksəldilməsinə şərait yaradır.

Təlim mərkəzinin atış poliqonunda zirehli texnikalardan, atıcı silahlardan, minaatan və zenit qurğularından təlim atışları yerinə yetirilib.

# "Ağdamı görəndə mənə elə gəldi ki, qiyamət günündəyəm"

## Dini konfessiya rəhbərləri Qarabağda törədilən vandallıqdan dəhşətə gəliblər



Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə və ölkədəki dini konfessiyaların rəhbərlərinin Ağdama səfəri baş tutub. QMİ sədri və dini konfessiya rəhbərləri səfər çərçivəsində Ağdam şəhərində yerləşən Cümə məscidini ziyarət ediblər. Məsciddə azan verilib, namaz qılınıb, Quran və şəhidlərin ruhlarına dualar oxunub. Dini konfessiya rəhbərləri Qiyaslı məscidini də ziyarət ediblər. Qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görüb və törədilən vandallıqdan dəhşətə gəliblər.

**Şeyx Roma Papasından minalarla bağlı məsələyə münasibət bildirməsini istəyir**

**"Ağdamı görəndə ürəyim ağrıdı"**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə deyib ki, Ağdam hər zaman öz gözəlliyi, binaları, insanları ilə seçilib: "Amma indi buranı görəndə mənim ürəyim ağrıdı. Yəhudi icmasının rəhbəri Milix həzrətləri dedi ki, bura daha çox Hirosimaya oxşayır. Gördüm ki, insanlar burada öz həyatını təhlükəyə ataraq mina axtarırlar. Bu torpaqları minalardan azad etmək istəyirlər. Bu o deməkdir ki, bu torpaqların sahibi bizik. Onlar sahibi olmayıblar. Ermənilərin məqsədi vandalizm, bütün torpaqlarımızı dağıtmaq olub. Biz Qarabağ uğrunda həlak olan şəhidlərimizi də ziyarət elədik. Qəbiristanlıqda 150-dən çox şəhid qəbri vardı. Onların çoxu dağıdılıb. Bu, insani münasibət deyil. Ermənilər, o cümlədən bütün dünyada olan ermənipərəstlər həmişə bunları dəstəkləyiblər. Bizim qələbəmiz islam dünyası üçün də böyük qələbədir.

**Şeyxülislam bildirib ki, minalar insan tələfatı deməkdir:** "Çox arzu edərdim ki, Roma Papası buna da öz münasibətini bildirsin. Səfərdən qayıtdıqdan sonra bir sıra dini liderə, o cümlədən Roma Papasına müraciət edək ki, işğaldan azad olunmuş ərazilərin minalanması ilə bağlı fikirlərini, münasibətlərini bildirsinlər".

**"İşğal zamanı dağıdılmış məscidlərimiz, kilsələrimiz, sinaqoqlarımız hamısı bərpa olunacaq"**

**Şeyx işğaldan azad edilmiş torpaqların çiçəklənəcəyinə inandığını bildirib:** "Bu məsələdə Mehriban xanımın da böyük zəhməti var. Ona da öz minnətdarlığımızı bildiririk. İnanıram ki, işğal zamanı dağıdılmış 63 məscidimiz bərpa olunacaq, oradan azan səsi gələcək. O cümlədən bu ərazilərdə kilsələrimiz, sinaqoqlarımız var. Azərbaycan xalqının bütün mədəni abidələri bərpa ediləcək.

Bu torpaqların azad olması bizim şəhidlərimizin qanı bahasına olub. Şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Şəhidlərin ailələrinə də başsağlığı verirəm. Azərbaycan xalqı heç vaxt onları unutmayacaq". A.Paşazadə qeyd edib ki, Azərbaycandakı xristian, katolik, yəhudi icmalarının rəhbərləri də onunla birlikdə Ağdama səfər edib: "Bu, bir daha göstərir ki, Azərbaycanda tolerantlıq, dinlərarası dialoq, münasibətlər var. Biz birlikdə məsciddə namaz qıldıq. Hər kəs öz ibadətini elədi. Bu, dünyanın heç bir yerində yoxdur. Bu, Azərbaycan xalqının xislətindədir. Ermənilərin azərbaycanlılarla birlikdə yaşaya bilməmələrini deməsi isə anlaşılan deyil. Bizim xalqımız həmişə başqa xalqlara hörmətlə yanaşıb. Onların məbədlərinə, inamlarına hörmətlə yanaşmışıq. Bu gün də hörmətlə yanaşırıq. Hətta Bakıda yerləşən erməni kilsəsinə də hörmətlə yanaşırıq".

**"Dünyaya göstərək ki, bu torpaqlarda necə dağıntılar törədilib"**

**Azərbaycandakı Roma Katolik İcmasının rəhbəri Vladimir Fekete bildirib ki, bu torpaqları bərpa etmək, Azərbaycanı gözəl məkana çevirmək böyük işdir:** "Bizim missiyamız dua etməkdir. Dua etməliyik ki, Allah bizim Prezident İlham Əliyevə, dövlətin rəhbərliyinə kömək olsun, bu torpaqlar ildən-ilə inkişaf etsin, çiçəklənsin, cənnətə çevrilsin. Bütün dünyaya da göstərək ki, bu torpaqlarda necə dağıntılar törədilmişdi və Allahın köməyi ilə bu əraziləri necə bərpa etdik".

**"Şanlı qələbədə yəhudi xalqının da, dünya yəhudilərinin də öz payı var"**

**Dağ Yəhudiləri icmasının rəhbəri Milix Yevdayev bildirib ki, şanlı qələbədə yəhudi xalqının da, dünya yəhudilərinin də öz payı var:** "Bu gün biz ədalətin təntənəsini qeyd edirik. Mənfur düşmənlər indi bildi ki, ulu türk xalqı kükrəyəndə düşmənin ayağının altından torpaq qaçır. Bütün dünya yəhudiləri adından bir daha Azərbaycan xalqını təbrik edirik. Hamı bilir ki, bu şanlı qələbədə yəhudi xalqının da, dünya yəhudilərinin də öz payı var".

**Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski müharibədən əvvəl bir neçə dəfə Ağdamda olduğunu xatırladıb:** "Lakin bu dəfə Ağdama gələndə tamam ayrı mənzərə ilə qarşılaşdım. Mənə elə gəldi ki, qiyamət günündə, yaxud yuxudayam. Elə bil dejavü görürdüm. Yol boyu hər 10-20 metrdən bir minaaxtaranlar dayanıb və bizim müqəddəs torpaqlarımızda mina axtarırlar. Evlər dağılıb, o güllü-çiçəkli Ağdamdan heç nə qalmayıb. Sözün düzü, səfərimizin əvvəlində əhvalımız çox yüksək idi. Lakin mən bu mənzərəni görəndən sonra üzümdən təbəssüm çəkildi. Bu, sadəcə dəhşətdir! Görün, erməni faşistləri bizim torpaqlarımızı nə kökə salıblar! Bu, nağıl deyil, gerçəklikdir". İcma rəhbəri işğaldan azad olunmuş torpaqların yenidən bərpa ediləcəyinə əmin olduğunu vurğulayıb: "Əgər bizim dövlətimiz və prezidentimiz Vətən müharibəsində zəfər qazana biliblərsə, deməli, evlərimiz də, məktəblər də, xəstəxanalar da yenidən bərpa ediləcək. Yeganə bərpa edilməsi çətin olan müharibədə öz yaxınlarını itirənlərin qəlbindəki ağrılardır. Bütün gün dualar etdiyimizi nəzərə alaraq, mən torpaqlarımızı işğal edənləri lənətləmək istəyirəm və bizim torpaqlarımızı məhv edənlərə lənət olsun deyirəm".

**"Erməni vandalizmini Xudavəngdə, Ağoğlanda, hər yerdə gördük"**

**Alban-Udin Xristian İcmasının sədri Robert Mobili bildirib ki, erməni vandalizmini Xudavəngdə, Ağoğlanda, hər yerdə gördük:** "Bu, işğaldan azad edilmiş torpaqlara ilk səfərim deyil, dörd səfərim olub. Bu gün dini konfessiya rəhbərləri birinci dəfə Ağdama səfər edirlər. Şeyxə təşəkkür edirəm ki, işğaldan azad olunmuş Qarabağa, Ağdama gəldik. Qarabağda olan dini abidələrin ermənilər tərəfindən saxtalaşdırılması, islamla bağlı tarixi abidələrin məhv edilməsi dəhşətlidir". O deyib ki, özlərini erməni kilsəsinin nümayəndəsi kimi dünyaya göstərən bir xalq hətta alban xristian irsini məhv edib: "O kilsələri, məbədləri saxtalaşdırıblar. Erməni vandalizmini Xudavəngdə, Ağoğlanda, hər yerdə gördük. Bu gün Ağdamda gördüklərimiz buna bariz nümunə idi. Hər dəfə gələndə biz şəhidlərimizi yad edirik, bu gün də bütün dualar ondan ibarətdir. Allah burada etdiyimiz duaları, namazı qəbul eləsin. Qarabağ bizim üçün doğmadır. Ermənilər müharibəni uduzublar. Azərbaycan Ordusu torpaqları işğaldan azad edib. Amma soyuq müharibə gedir, bunu da bilməliyik. Bu gün də soyuq müharibədə erməni qarşısında yenə də mübarizədəyik. Ermənilərə bir mesaj vermək istəyirəm, guya, xristianlar ermənilərlə bir yerdə yaşaya bilməzlər, biz xristianlar azərbaycanlılarla bir yerdə yaşayırıq. Bu gün yəhudilər, xristianlar və başqa dini konfessiyalar bir yerdədir. Azərbaycan gözəl məkandır. Torpaqlar 44 gün ərzində işğaldan azad olundu. Buraları minadan təmizləməyə nə qədər vaxt lazımdır. Ümid edirəm, dualarımız eşidiləcək. Bu torpaqlarda bayramlar, tədbirlər keçirək, dini ibadətlər edək. Azərbaycan xalqı tolerant xalqdır, burada multikultural şərait var, bugünkü səfər də bunun bariz nümunəsidir".

**İsmayıl**



## Kəlbəcərə 145 ton yük çatdırıldı

**Qarabağa yerləşdirilən Rusiya sülhməramlıları Azərbaycanın işğaldan azad olunan əraziləri arasında humanitar yüklərin tranzitini təmin etməyə davam edirlər. Bu barədə Sputnik Azərbaycan Rusiya Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir.**

"Sosial obyektlər və yaşayış evlərinin elektrik və su ilə təminatının bərpası üçün Humanitar Yardım Mərkəzinin 15 "KamAZ" markalı hərbi avtomobil və onları müşayiət edən maşınlardan ibarət kolonnası Suqovuşan-Kəlbəcər marşrutu üzrə Kəlbəcər rayonuna 145 ton həcmində yük çatdırıb. Yük elektrik avadanlığı, tikinti avadanlığı və materiallardan ibarət olub", - deyə məlumatda bildirilir.

*Qeyd olunur ki, Rusiya sülhməramlılarının vasitəçiliyi ilə on doqquz avtomobil kolonnası vasitəsilə 2100 tondan çox yük daşınıb.*

## Pilot həlak olub

### Türkiyədə hərbi təyyarə qəzaya uğrayıb



**Türkiyənin Konya vilayətində hərbi təyyarə qəzaya uğrayıb.**

Trend-in məlumatına görə, qəza nəticəsində təyyarənin pilotu həlak olub.

Hadisə yerinə xilasedicilər cəlb edilib.

Məlum olub ki, təyyarə "Türk ulduzları" aviaakrobatika qrupuna məxsus NF-5 təyyarəsidir. Qəza təlim zamanı baş verib.

Türkiyə Milli Müdafiə Nazirliyinin hadisə ilə bağlı açıqlamasında qəzanın səbəbinin bilinmədiyi qeyd edilir. Həmçinin, məsələ ilə əlaqədar araşdırmalara başlanıldığı vurğulanır.

## Ermənilər Əhəngdağı da talan ediblər



**Əhəngdağ əhəng emal yatağı Zəngilan rayonunda Oxçuçayın sahilində yerləşir.**

Trend-in məlumatına görə, bu ərazi təbii ehtiyatları ilə məşhur olub.

Ermənistan silahlı qüvvələri Zəngilan rayonunu işğal edəndən sonra bu yataq da ermənilər tərəfindən xüsusi vandallıqla dağıdılıb, əhəng və digər təbii ehtiyatlar qanunsuz olaraq daşınıb.

# Qafan yolunda erməni maşınına daş atacaq adam yoxdur



## Ermənilərin şayiələrində iyrənc siyasi niyyət gizlənir

**Erməni mediası günlərdir Qafan yolunda erməni seriyalı maşınların "azərbaycanlılar tərəfindən" daşlanması barədə məlumat tirajlayır. Qafan meri Gevork Parsyana istinadla verilən informasiya sosial şəbəkələrdə də geniş yayılmaqdadır.**

Guya, bu cür hadisələr David Bek-Şurnux yolunda baş verir. Azərbaycanın rəsmi qurumları həqiqəti əks etdirməyən xəbərlərlə bağlı dəfələrlə açıqlama versələr də, ermənilər israrla azərbaycanlılarla "yola getmədiklərini" əks etdirən xəbərlər yayırlar. Yayılan məlumatın həyasız yalan olmasının sübutu odur ki, azərbaycanlılar hələ işğaldan azad edilən ərazilərə köçməyiblər, orada quruculuq işləri aparılmayıb və minalar təmizlənməyib. Yəni orda erməni maşınına daş atacaq adam yoxdur.

**Vətəndaş Həmrəyliyi Partiyasının funksioneri, siyasi şərhçi Samir Əsədli "Şərq"ə bildirib ki, İkinci Qarabağ savaşından sonra erməni tərəfi dəfələrlə durumu gərginləşdirən şayiələr yayıb.** Son xəbərlər də bu sıradandır. Partiya təmsilçisi qeyd edib ki, bəhs edilən bölgədə hələ Azərbaycanın mülki əhalisi məskunlaşdırılmayıb: "Orada Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri durur. Azərbaycan əsgəri isə daş yox, silah atır. Hərbçilərimizin necə silah atdığını ermənilər daha yaxşı bilir. Belə yalanların yayılmasında bir neçə məqsəd ola bilər. Amma uydurma xəbərləri yaymaq ilk növbədə erməni xislətindən, onların mahiyyətindən irəli gəlir. Ermənilər özləri haqda "yazıq", "məzlum" toplum imici yaratmaq üçün hər cür yalan uydururlar. Başqalarını da inandırmaqdan zövq alırlar. İndiki durumda isə yayılan şayiənin arxasında iyrənc siyasi niyyət gizlənir. Əvvəla, ermənilər bu kimi xəbərlərlə azərbaycanlıların sülhə qarşı olduqlarını, guya bizimlə birgə dinc şəraitdə yaşamağın mümkün olmadığını təlqin etmək istəyirlər. Digər tərəfdən isə bu kimi yalanlarla Qarabağda rus sülhməramlılarının sayının artırılmasına nail olmağa çalışılar. Sərhəd bölgədə yayılan dezinformasiyaların məqsədi bunlardır".

**İsmayıl Qocayev**

## Azərbaycanda hərbçi yanaraq ölüb



**Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu vəfat edib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Məlumata görə, əsgər Sarızadə Elvin Azər oğlu aprelin 5-də məzuniyyətdə olarkən yanması nəticəsində vəfat edib.

## Paşinyan Rusiyanın iştirakı ilə Ermənistanda yeni AES tikilməsini istəyir

**Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan Ermənistanda Rusiyanın iştirakı ilə yeni atom elektrik stansiyasının (AES) tikintisini müzakirə etmək niyyətindədir.**

APA-nın Moskva müxbirinin "Rossiya 24" kanalına istinadən verdiyi məlumata görə, bunu Paşinyan Rusiya prezidenti ilə Kremldə keçirilən görüşdə bildirib.

"Mən bu gün sizinlə Ermənistanda yeni AES-in inşasının mümkünlüyünü müzakirə etmək istəyirəm", - deyə Paşinyan qeyd edib.

# Senari xaricdən cızılıb

## 104 admiralın bəyanatı hərbi çevrilişə çağırışdır

Türkiyədə təqaüddə olan 104 admiralın Montrö Boğazlar Müqaviləsini bəhanə edərək hökuməti təhdid edən və dövlət çevrilişinə işarə vuran "xəbərdarlıq bəyanatı" ölkə ictimaiyyətində və hakim AKP-də kəskin narazılığa səbəb olub. Cəmiyyətdə böyük etirazlarla qarşılanan bəyanatdan sonra Ankara Prokurorluğu təqaüddə olan 104 admiral haqqında cinayət işi açıb.

**"Türkiyə tarixində hərbi çevriliş bəyanatları, hökumətə xəbərdarlıqlar adətən gecə saatlarında baş verib"**





*- Əminliklə söyləmək olar ki, bəyanatın arxasında duranlar 2016-cı il 15 iyulda hərbi çevrilişə cəhd edənlərlə eynidir. Həmin güc isə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsidir...*

Məhkəmənin qərarı ilə bəyanatı imzalayan admiralların mənzil və mühafizə hüquqları əllərindən alınıb. İstintaq çərçivəsində 10 admiral saxlanılıb. Xatırladaq ki, ötən bazar günü yayılan bəyanatda 1936-cı ilə imzalanmış, Bosfor və Dardanel boğazları üzərində hüquqlarla bağlı olan Montrö konvensiyası Türkiyənin diplomatik qələbəsi adlandırılıb. Admirallar ölkədə Montrö müqaviləsindən çıxmaqla və dəyişdirilməklə bağlı müzakirələrin dayandırılmasını tələb ediblər. Həmçinin, Qara dənizlə Mərmərə dənizini birləşdirəcək möhtəşəm "İstanbul" kanalı layihəsinə qarşı çıxıblar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 104 admiralın içində xeyli sayda Cümhuriyyət Xalq Partiyası üzvlərinin olduğunu və sözügedən bəyanatın mərkəzində CHP-nin dayandığını söyləyib. "İstanbul" kanalı haqqında danışan Ərdoğan hər şeyə rəğmən, bu kanalın mütləq inşa ediləcəyini deyib. Ölkə rəhbəri dövlət çevrilişinə cəhd göstərənlərin, buna çağırış edənlərin ən ciddi formada cəza alacaqlarını vurğulayıb.

Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı da 104 nəfər istefada olan admiralın məktubuna sərt reaksiya verib. Baxçalı admiralların hərəkətini dövlət çevrilişinə çağırış kimi qiymətləndirib: "Bu, açıq-aşkar dövlət çevrilişinə çağırış etməkdir. Bu, Türkiyə demokratiya tarixinin qara ləkəsidir. Cəsarətlərinin cəzasını çəkməlidirlər". Baxçalı bildirib ki, məktuba imza atmış admiralların rütbəsi sökülməli, dövlətin onlara ödədiyi pensiya kəsilməlidir. O, həmçinin bu məsələdə Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlunun əli olduğunu da vurğulayıb: "CHP rəhbərliyi bir daha demokratiyaya qarşı çıxıb, çevriliş arzusunda olan quldurlarla birləşib. 4 aprel bəyannaməsinin görünməyən imzası Kılıçdaroğluna məxsusdur".

**Türkiyə gündəmini zəbt edən mövzu ilə bağlı "Şərq"ə danışan politoloq Natiq Miri deyib ki, Montrö anlaşması Ankara hökumətinin müzakirə mövzusu deyil.** Analitik vurğulayıb ki, Türkiyədə heç bir dövlət rəsmisi məlum müqavilədən birtərəfli çıxmaqla bağlı hər hansı cümlə sərf etməyib: "Bəyanata imza atan admirallardan bir neçəsi CHP rəhbərliyində təmsil olunur. Maraqlı məqam ondadır ki, bəyanatdan öncə CHP-yə xidmət edən "Xalq" TV-də "Montrö anlaşması da İstanbul razılaşması kimi ləğv oluna bilərmi?" mövzusunda müzakirələrə başlanılıb. 104 admiralın gecə yarısı ortaya çıxmasından qabaq müxalif "Xalq" TV-də süni gündəm yaradılmışdı. Həmin media qurumu bəyanatdan sonra bunu admiralların "fikir və söz azadlığı" kimi təqdim etməyə çalışdı. Halbuki, təqaüddə olan admirallar tənqidi düşüncələrini sərbəst şəkildə müxalifətə məxsus efirlərdə səsləndirə bilərdilər. Onlara heç kim qadağa qoymamışdı. Ancaq bunun əvəzinə birdən-birə, özü də gecə yarısı peyda olaraq hökumətə "xəbərdarlıq" etməyi seçdilər. Türkiyə tarixində hərbi çevriliş bəyanatları, hökumətə xəbərdarlıqlar adətən gecə saatlarında baş verib. 104 admiralın bəyanatı birbaşa hərbi çevriliş deyil, amma hərbi çevrilişə çağırışdır. Məsələnin təhlükəli tərəfi budur. ABŞ-ın kəşfiyyat orqanlarının hesabatlarında Türkiyə Ordusunda orta təbəqəli zabitlər arasında "narahatlıq" olması ilə bağlı iddialar yer alır. Ona görə bu addım dolayı yolla hərbi çevrilişə cəhd kimi dəyərləndirilməli və adı keçənlər ən sərt formada cəzalandırılmalıdır".

**N.Mirinin fikrincə, bu, siyasi qərardır və Türkiyə xaricində verilib:** "Məsələ elə qoyulub ki, guya, prosesin arxasında Rusiya durur. Çünki Moskva Montrö anlaşmasından çox məmnundur. Anlaşmaya görə, Qərb ölkələrinə məxsus hərbi gəmilər Türkiyə boğazlarından keçdikdən sonra Qara dəniz ekvatoriyasında üç həftədən artıq qala bilməz. Əgər Montrö müqaviləsi ləğv olarsa, ABŞ gəmiləri Qara dənizdə aylarla, illərlə qalar və Rusiya üçün ciddi təhlükə törədər. Müəyyən dairələr Ankara ilə Moskvanı qarşı-qarşıya gətirmək üçün bu bəyanatı ortaya atıblar. Əminliklə söyləmək olar ki, bəyanatın arxasında duranlar 2016-cı il 15 iyulda hərbi çevrilişə cəhd edənlərlə eynidir. Həmin güc isə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsidir. Mühüm bir məqamı da qeyd edim ki, 104 admiralın "xəbərdarlığı" 15 iyula məhz 104 gün qalmış imzalandı. Bunun təsadüf yox, AKP-yə verilmiş çox ciddi mesaj olduğunu düşünürəm. Siyasətdə təsadüflər olmur".

**İsmayıl Qocayev**

# Güc də artır, nüfuz da

## Yeni saziş Azərbaycan və Türkiyə ordusunun imkanlarını genişləndirəcək

Azərbaycanla Türkiyə arasında hərbi sahədə Birgə Komissiya yaradılır. Bu barədə "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Cümhuriyyəti hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında" sazişdə müddəa var. Saziş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təsdiqlənib.



Sənəd 2017-ci il oktyabrın 31-də Bakıda imzalanıb. Sazişə Azərbaycan tərəfdən Müdafiə naziri Zakir Həsənov, Türkiyə hökuməti adından isə ovaxtkı Milli müdafiə naziri Nurettin Canıklı imza atıb.

Sənəddə göstərilir ki, Birgə Komissiyanın üzvləri Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin və Türkiyə Milli Müdafiə Nazirliyi Müdafiə Sənayesi Müşavirliyinin nümayəndələrindən ibarət olacaq. Komissiyada hər iki tərəfin bərabər sayda təmsil olunması nəzərdə tutulur.

**Yeni sənədlə bağlı fikirlərini "Şərq"lə bölüşən hərbi ekspert Ramil Məmmədli Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın tarixinin uzun illərə dayandığını qeyd edib.** Ekspert bildirib ki, müasir dövrümüzdə Türkiyə ilə hərbi-siyasi əlaqələrimiz haqqında danışarkən 1994-cü ili xüsusi qeyd etməliyik: "Həmin ildə Azərbaycanla Türkiyə arasında strateji əməkdaşlığa dair müqavilə imzalanıb. Müqaviləyə əsasən, strateji əhəmiyyət kəsb edən bir çox istiqamətlər, həmçinin hərbi sənaye və siyasi əməkdaşlıqla bağlı birgə fəaliyyət təsdiqlənib.

Yeni saziş qardaş ölkə ilə hərbi münasibətlərin daha da dərinləşməsinə səbəb olacaq. Bu məqam xüsusilə Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın yeni mərhələsinə start verəcək. Sənəd iki ölkə üçün yeni başlanğıc olacaq.

Bu gün Azərbaycan-Türkiyə arasında hərbi sənayedə birgə layihələrin həyata keçirilməsi və siyasi fəaliyyət istiqamətində vacib məsələlər həllini tapır. Bundan sonrakı addımlar iki ölkənin hərbi münasibətlərinin daha da dərinləşməsinə səbəb olacaq.

Yeni saziş Azərbaycan və Türkiyə Ordusunun imkanlarını çox genişləndirəcək. Ordumuzun regiondakı nüfuzu və gücünə müsbət təsir edəcək. Ümumiyyətlə, xüsusi vurğulamaq lazımdır ki, Türkiyə ilə birgə həyata keçirilən istənilən fəaliyyət ancaq hərbi qüvvələrimizin güclənməsinə səbəb ola bilər".

**Yeganə Bayramova**

## Müharibə gözlənilmir

### Deputat: "Biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik"



**Rusiya ilə Ukrayna arasında münasibətlər getdikcə gərginləşməkdədir.**

Belə bir şəraitdə müharibənin başlanması tam realdır. Çünki rəsmi Kiyev öz mövqeyində qətiyyətlidir. Eyni zamanda Moskva işğalçılıq siyasətindən əl çəkmir. Bəs savaş başlasa, NATO nə edəcək?

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə potensial savaş zamanı NATO-nun mövqeyi barədə fikirlərini "Şərq"lə bölüşdü:** "ABŞ prezidenti Ukraynaya ən yüksək səviyyədə dəstəyini ifadə edib. Lakin NATO daxilində vahid fikir yoxdur. Rusiyanı narahat edən Ukrayna ilə Qərbin yaxınlığıdır. Odur ki, Kreml təzyiqlər göstərir, atəşkəsi pozur.

Düzdür, həmin həmlələr müharibənin başlanması üçün deyil. Belə demək mümkünsə, daha çox əsəbləri tarıma çəkməyə hesablanıb.

Hərbçilərin ölməsi bizi narahat edir. Müharibənin başlanmayacağına ümid edirəm. Lakin bütün hallarda Azərbaycanın mövqeyi məlumdur. Biz Ukraynanın ərazi bütövlüyünü və beynəlxalq hüquq normalarını dəstəkləyirik".

**Kənan Novruzov**

## Nazirliyin vəzifəli şəxsi koronavirusdan vəfat edib



**Müdafiə Nazirliyinin vəzifəli şəxsi koronavirusdan vəfat edib.**

Unikal.org-un əldə etdiyi məlumata görə, nazirliyin Hüquq Şöbəsinin polkovniki Bəxtiyar Rəsulzadə koronavirusdan dünyasını dəyişib.

*Qeyd edək ki, mərhum polkovnikin bir müddət öncə verdiyi COVİD-19 testinin nəticəsi pozitiv çıxmışdı və müalicə alırdı.*

## Deputat Türkiyəyə getdi

### Vahid Əhmədovun səhhəti pisləşib



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov səhhətində yaranan problemlə əlaqədar yenidən Türkiyədədir.**

Modern.az xəbər verir ki, bu müddət ərzində deputat müayinə və müalicələrdən keçəcək.

Parlamentarinin bir neçə gün sonra Vətənə dönəcəyi bildirilib.

*Qeyd edək ki, V.Əhmədov bir müddət əvvəl də ürəyində yaranmış problem səbəbilə Türkiyədə müalicə alıb.*

## AMEA-nın Hüquq və kadrlar idarəsinin rəisi vəzifəsindən azad edilib



**AMEA-nın Hüquq və kadrlar idarəsinin rəisi Rasim Ağasiyev vəzifəsindən azad edilib.**

Faktı APA-ya AMEA-nın akdemik-katibi Adil Qəribov təsdiqləyib.

O bildirib ki, R. Ağasiyev öz ərizəsi ilə vəzifəsindən azad edilib.

# Moskvadakı açıqlamalar çox gülünc səslənir

### Koçaryanın erməni ictimai rəyində heç bir nüfuzu qalmayıb

"Son üç ildə silahlı qüvvələrin döyüş qabiliyyəti metodiki cəhətdən azaldıldı".

Bunu Ermənistanın eksprezidenti Robert Koçaryan Rusiyanın birinci kanalında yayımlanan "Pozner" verilişində deyib. Koçaryan bildirib ki, 2018-ci ildə hakimiyyət dəyişikliyindən sonra yeni hökumətdə orduya qarşı pataloji qorxu və inamsızlıq yarandı.



"Azərbaycan Prezidenti İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Azərbaycan əslində Sarkisyan-Koçaryan ordusunu məhv edib"

"Birinci Qarabağ müharibəsi "qəhrəmanları"nın nüfuzdan salınması prosesi gedirdi. Bu çox fəal bir proses idi" - deyən eks-prezident xatırladıb ki, 1 il ərzində döyüş hazırlığı işlərində aktivlik müşahidə edildi, Ordu rəhbərliyində isə tez-tez dəyişikliklər baş verirdi. O həmçinin müharibənin gedişində ordu rəhbərliyində bu cür halların olmasını anormallıq adlandırıb.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən politoloq Tural İsmayılov qeyd edib ki, Robert Koçaryanın ordu ilə bağlı açıqlamaları ümumilikdə çox saxta və fiksiya xarakterli açıqlamalar idi.** Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Azərbaycan əslində Sarkisyan-Koçaryan ordusunu məhv edib: "Paşinyan hakimiyyətə yeni gəlib. O, hakimiyyətə gəldiyi dövrdə daha çox erməni xalqına verdiyi vədləri yerinə yetirməyə çalışıb. Baxmayaraq ki, ölkənin daxili, ictimai-siyasi, iqtisadi vəziyyəti Paşinyanın dövründə daha da xaotik duruma gəlmişdi. Amma bütün bunlarla yanaşı ordu quruculuğu sayəsində Paşinyan tərəfindən hansısa ciddi addımlar atılmayıb. Bu baxımdan Ermənistanda məğlub olan və kapitulyasiya durumuna çatan ordu məhz Koçaryan dövründən formalaşdırılmış ordu idi".

*T.İsmayılov əlavə edib ki, əlbəttə ki, Paşinyanın birbaşa Qərb dairələri ilə əlaqələrinin olması Koçaryan tərəfindən qurulmuş ordunun içərisində anti-Paşinyan ritorikasını daim güclü saxlayır:* "Ermənistanda hələ Vətən müharibəsindən əvvəlki dövrdə komandanlıq və generalitet arasında ciddi ixtilaflar və fikir ziddiyyətləri mövcud idi. Nəticədə bu ixtilaflar və ziddiyyətlər fonunda Ermənistan ordusu nizamnamədən kənar davranışlara görə xarici hesabatların bir çoxunda dünyada ilk sıralarda yer alıb. Bütün bunların fonunda hələ də "dedovşina"nın hökm sürdüyü Sovet dövründən qalma və artıq MDB məkanında demək olar ki, heç bir ölkədə qalmayan iyrənc hərəkətlərin yer aldığı ordu məhz Ermənistan ordusudur. Bu baxımdan düşünürəm ki, Paşinyanın orduyla olan münasibətləri də gərgin səviyyədə qalmaqda davam edəcək".

**Politoloq qeyd edib ki, Silahlı Qüvvələrin Baş Qərargahı ilə Ermənistan Müdafiə Nazirliyi arasında ciddi fikir ixtilafları var:** "Ermənistanın Müdafiə Nazirliyi birbaşa Paşinyan iqtidarına və elitasına yaxın adamlardan təşkil olunsa da, Silahlı Qüvvələrin Baş Qərargahında, eyni zamanda Ermənistan hərbi birləşmələrində hələ də Koçaryanın dövründə hərbi xuntada yer almış canilər öz fəaliyyətlərini davam etdirirlər. Bu baxımdan düşünürəm ki, Paşinyan xüsusən sonuncu baş qərargah rəisi ilə bağlı məsələdə sonradan anladı ki, ordu onun üçün böyük təhdiddir. Paşinyanın ordunu özünə real təhlükə hesab etməsi gözləniləndir. Lakin Koçaryanın bu məsələdə hansısa siyasi dividend üçün istifadə etməsi gülünc görünür. Çünki keçirilən rəy sorğuları da göstərir ki, Robert Koçaryanın erməni ictimai sistemində və cəmiyyətində heç bir nüfuzu və siyasi iradəsi yoxdur".

**Aynurə Pənahqızı**

# Plan dəyişməyib

## Rusiyanın planı Koçaryanı hakimiyyətə gətirməkdir



### Keçmiş prezident Putinə məxsus şirkətlərin birində direktorlar şurasında oturur

**Rusiya Prezidenti Vladimir Putinlə Moskvada səfərdə olan Ermənistanın keçmiş prezidenti Robert Koçaryan arasında onlayn görüş baş tutub. Bu barədə "Sputnik Ermənistan" məlumat yayıb.**

Məlumatda qeyd olunur ki, Vladimir Putinlə Robert Koçaryan arasında görüş bir saata yaxın davam edib.

Agentlik yazır ki, tərəflər Ermənistandakı vəziyyəti və regiondakı son durumu müzakirə ediblər.

**Məlum görüşü "Şərq"ə şərh edən siyasi analitik Turab Rzayevin sözlərinə görə, son 2 ildir ki, Rusiya hakimiyyəti və rəsmi Moskvaya bağlı qüvvələr Koçaryanı xüsusi diqqətdə saxlayırlar:** "Burada əsas məsələ onu Paşinyana alternativ olaraq yetişdirməkdir. Hətta Paşinyan Koçaryanı həbs etdirmişdi, Putinin zəngindən sonra onu buraxmağa söz versə də, azad etməmişdi. Müharibə başlayanda isə təzyiqlər nəticəsində məcbur qalıb buraxmalı oldu.

Koçaryan Putinə yaxın adamdır. Hətta Putinə məxsus şirkətlərin birində direktorlar şurasında oturur. Bundan başqa Putin Koçaryanın ad günündə zəng vuraraq onu şəxsən təbrik etmişdi".

**Analitik vurğulayıb ki, Rusiya Paşinyanın yerinə namizəd kimi Koçaryanı hazırlayır:** "Hətta Rusiyanın məşhur siyasi şərhçisi Pozner Koçaryanla bağlı veriliş hazırlayıb, onun Ermənistana lazımlılığı ilə bağlı açıqlama verib. Bunun özü böyük müzakirələrə səbəb olub.

Deməli, Rusiyanın növbəti planı Koçaryanı hakimiyyətə gətirməkdir. Görünən odur ki, Paşinyanın hansısa formada hakimiyyətdən uzaqlaşmasını istəyirlər. Ümumi nüans budur ki, Paşinyan nə qədər Rusiya ilə münasibətlərini pozmamağa, neytral mövqe saxlamağa çalışsa da, qərbə meyillidir.

Bu da Rusiyaya sərf etmir. Rəsmi Kreml artıq Paşinyanın bu manevrlərindən bezib. Ona görə də ehtiyat üçün tədbir görürlər və Koçaryanın qalib gəlməsinə çalışırlar".

**Yeganə Bayramova**

# Üçtərəfli öhdəliklərə tam əməl olunmalıdır

## Ermənistan postmünaqişə dövründə vəziyyəti gərginləşdirməyə xidmət edən addımlardan çəkinməlidir



**Qarabağda vəziyyətin normallaşması ən aktual və vacib problem olaraq qalır.**

Bunu Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşdə deyib. "Əlbəttə, ikitərəfli münasibətlərin qurulması baxımından danışacağımız bir çox məsələlər var və təbii ki, ən aktual, ən mühümü Dağlıq Qarabağda və ətrafındakı vəziyyətin normallaşmasıdır", - Putin Moskvada Paşinyanla keçirdiyi görüşdə bildirib.

**Mövzuya münasibət bildirən politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında bildirib ki, bu gün vacib və aktual məsələ regional təhlükəsizliyin möhkəmləndirilməsi, postmünaqişə dövründə yaranmış əməkdaşlıq imkanlarından maksimum səmərəli istifadə olunmasıdır:** "Azərbaycan regional təhlükəsizliyə ciddi təhdidlər yaradan işğal faktını öz hərbi-siyasi gücü ilə aradan qaldırdı. Yeni Dağlıq Qarabağ münaqişəsinin həllinə müvəffəq oldu. Artıq "Dağlıq Qarabağ münaqişəsi" məfhumu yoxdur və Cənubi Qafqaz regionunun gələcəyi Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar üzərində inşa olunur".

*N.Qələndərli vurğulayıb ki, müharibənin nəticələrindən dərs çıxarmalı olan Ermənistan postmünaqişə dövründə vəziyyəti gərginləşdirməyə xidmət edən addımlardan çəkinməlidir:* "Tarixi ədaləti və öz ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda yeni təhlükəsizlik və əməkdaşlıq mühiti yaradıb. Hazırkı şəraitin fonunda münaqişədən sonrakı dövrdə vəziyyətin bütövlükdə müsbət istiqamətdə inkişafı üçün eskalasiya risklərinin minimal səviyyədə saxlanılması çox mühüm əhəmiyyətə malikdir. Təbii ki, üçtərəfli bəyanatda əksini tapmış öhdəliklərinə də qeyd-şərtsiz əməl etməlidir".

**Aynurə Pənahqızı**

# Belarus xarici siyasətini dəyişir



## Səfirlərin geri çağırılması dərin böhrandan xəbər verir

Belarus Prezidenti Aleksandr Lukaşenko xaricdəki diplomatik nümayəndəliklərin sayını optimallaşdırmaq istəyir. Bu barədə Lukaşenko xarici siyasətlə bağlı iclasda bəyan edib. Lukaşenko əlavə edib ki, dünya sürətlə dəyişir:

"Xarici İşlər Nazirliyi də daxil olmaqla bütün sahələrdə mövcud resursları adekvat uyğunlaşdırmalı və səriştəli şəkildə idarə etməliyik. Bir sıra ölkələrdə uzunmüddətli təcrübəmiz göstərir ki, Belarus diplomatik varlığının perspektivləri görünmür. Belarus niyə yumşaq desək, fasilə verilmiş istiqamətlərdə tam ştat diplomat heyətinə malik olsun? Bu məsələdə Litva və Polşa ilə olduğu kimi qarşılıqlı əlaqə əsasında çalışmaq lazımdır".

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Belarusun bir neçə ölkədə səfirini geri çağırması Belarusun xarici siyasətində müəyyən problemlərə yol açacaq.** O hesab edir ki, bu, Lukaşenko üçün müsbət perspektivlər vəd etmir: "Belarusun bir neçə ölkədə səfirini geri çağırması hesab edirəm ki, siyasi böhrandan irəli gəlir. Müxalifətlə iqtidar arasında konflikt xaricdə də davam edir. Mümkündür ki, Belarus rəhbərliyi səfirliklərin fəaliyyətindən şübhələnir. Fikrimcə, bu şübhələri olduğuna görə bu addımı atıb. Təbii ki, bu, Belarusun xarici siyasətində problemlərə yol açacaq. Lukaşenkoya təsir və təzyiqlər artacaq, habelə dövlətin ümumi xarici strategiyasında axsamalara yol açacaq".

**Politoloq vurğulayıb ki, Belarusda siyasi böhran səngisə də, hələlik davam edir:** "Düşünürəm ki, bu, Lukaşenko üçün müsbət perspektivlər vəd etmir. Hər bir ölkədə səfirlik həmin ölkənin xarici siyasətində dayaq məntəqəsidir. Belarus da həmin məntəqələrdən geri çəkilir. Hesab edirəm ki, ölkədə siyasi böhran daha da dərinləşə bilər".

**Aynurə Pənahqızı**

**Gürcüstanda fəaliyyət göstərən və milliyətçi ideologiyasına sahib olan "Gürcü Marşı" partiyasının sosial şəbəkə hesabları feysbuk tərəfindən silinib.**

Bu barədə "Feysbuk Administrasiyası" məlumat yayıb. Məlumata əsasən, partiya ilə əlaqəli olan 23 hesab, 24 səhifə və 12 ədəd feysbuk qurupu silinib. Bundan başqa, 11 ədəd instaqram səhifəsi də silinib. "Feysbuk Administrasiyası", həmin hesab, səhifə və qrupların



# Partiyanın bütün hesabları silindi

## Feysbuk əməlli-başlı biznes məkanına çevrilir

"nifrət dili, yalan və partiyanın tanınması üçün" müxtəlif məlumatlar yaydıqlarını bildirir.

> "Pul qarşılığında istənilən şəxsin, istənilən qrupun, ya da səhifənin şəxsi məlumatları satıla bilir"

**Məsələni "Şərq"ə ətraflı şəkildə şərh edən İnternet Kommunikasiya Texnologiyaları üzrə ekspert Kazım Məmmədov bildirib ki, son zamanlar feysbuk şəxsi hesablardan öz xeyri üçün istədiyi kimi istifadə edir:** "Əvvəlcə Azərbaycanda, sonra da qardaş Türkiyədə yüz minlərlə insanın şəxsi məlumatları oğurlandı. İndi də Gürcüstanda milliyyətçi bir partiyanın hesabları silinib.

Düşünürəm ki, feysbuk sosial şəbəkədən öncə bir biznes məkanıdır. Hansı ki, orada pul qarşılığında istənilən şəxsin, istənilən qrupun, ya da səhifənin şəxsi məlumatları satıla bilir. "Feysbuk heç kimin şəxsi məlumatlarına qarışmır" ifadəsi isə tamamilə yanlışdır.

"Gürcü Marşı" partiyasının feysbuk və instaqram hesablarının silinməsi yalnız 2 halda ola bilərdi. Birincisi, dediyim kimi, onlar dövlətə və ya kiməsə satılıb. İkincisi isə həqiqətən də onların səhvə yol verməsindən ibarət ola bilər. Lakin inandırıcı deyil ki, bir partiyanın bütün hesabları qaydaları pozmuş olsun.

Bu cür addımlarla feysbuk sosial şəbəkəsi yalnız bir neçə il davam edə bilər. Amma sonralar insanlarda inamsızlıq onları feysbukdan üz döndərməyə sövq edəcək. Bununla da feysbuk qeyri-işlək bir şəbəkəyə çevriləcək".

**Ağarza Elçinoğlu**

# Bütün suallar Rusiyanın üzərinə gəlir

## "İsgəndər M"lə bağlı məsələ beynəlxalq qalmaqala çevrilir



*"Ya Rusiya həqiqətən də beynəlxalq sazişi pozaraq Ermənistana orta mənzilli raket satıb, ya da şimal qonşumuz tərəf olaraq müharibədə iştirak edib. Bu, daha pisdir"*

Şuşa şəhərinə Rusiya istehsalı olan və böyük dağıdıcı gücə malik "İsgəndər" raketinin atılması ilə bağlı çoxvektorlu müzakirələr davam edir. Azərbaycan Respublikasının Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) sübut kimi raketin qalıqlarının fotolarını yayıb. Araşdırmalar bu raketin "İsgəndər M" olduğunu göstərir.

ANAMA raketlərin qalıqlarının Şuşada bir-birindən 780 metr ara ilə iki ərazidə tapdığını bəyan edib.

"İsgəndər M" raketinin istehsalçısı Rusiyadır və bunu da satmaq hüququ yoxdur. Raketin konkret olaraq hansı ölkə tərəfindən atılması barədə suallar isə cavabsız qalıb. Kreml hələ də Azərbaycan hərbçilərinin Qarabağda aşkarladığı "İsgəndər" operativ-taktiki raket kompleksinin raketinin qalıqları barədə məlumata malik deyil.

"İnterfaks"ın məlumatına görə, bu sözləri Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Raketlə bağlı heç nə deyə bilmərəm, məlumatım yoxdur", - deyə Kreml nümayəndəsi jurnalistlərin Qarabağda tapılan "İsgəndər" raketi qalıqları barədə sualına cavab verib.

**Tanınmış politoloq, sabiq MTN zabiti Ərəstun Oruclu "Şərq"ə bildirib ki, Şuşaya "İsgəndər M" raketinin atılması ilə bağlı qalmaqal faktiki olaraq Azərbaycan və Rusiya informasiya məkanından kənara çıxıb.** Artıq beynəlxalq səviyyədə də müzakirələr aparılır: "Məsələ burasındadır ki, Rusiya strateji silahların yayılmasına dair beynəlxalq sazişə əsasən "İsgəndər M" raketini heç bir halda Ermənistana və digər bir ölkəyə ixrac edə bilməzdi. Rusiyanın rəsmi məlumatlarında da bildirilir ki, Ermənistanın Rusiyadan aldığı raket "İsgəndər E" raketidir. Amma "İsgəndər M" raketinin Şuşada qalıqlarının tapılması onu göstərir ki, bu raketlər ora atılıb".

"İsgəndər M"-in kimin tərəfindən atılmasına gəlincə, politoloq bunun o qədər də önəmli olmadığını deyib: "Çünki hər bir halda qaydaları pozan Rusiyadır. Ya Rusiya həqiqətən də beynəlxalq sazişi pozaraq Ermənistana orta mənzilli raket satıb. Çünki sazişə əsasən 300 kilometrdən yuxarı uçuş məsafəsi olan raketlərin ixracı qadağandır. Ya da Rusiya özü tərəf olaraq müharibədə iştirak edib. Bu, daha pisdir. Bir sözlə, məsələyə hansı aspektdən yanaşmağımızdan asılı olmayaraq, son nəticədə bütün suallar Rusiyanın üzərinə gəlir. "İsgəndər M" raketi qalmaqalına görə cavab verməli olan ölkə Rusiyadır.

Suallar da belə olmalıdır: "İsgəndər M"-i Ermənistan Silahlı Qüvvələri atıbsa, Rusiya niyə bu silahı onlara satıb? Bu silah yalnız Rusiya Ordusunun arsenalındadır. Deməli, raketi atan da məhz Rusiyadır. Hər bir halda məsələ rəsmi Kremldə dayanır".

**Yeganə Bayramova**

## Radarlar trayektoriyanı hesablayıb



**"Hazırkı unikal imkandan yararlanıb xeyli güzəştlər əldə edə bilərik"**

**"İsgəndər"i Rusiya atıb. Açıqlamalar və Ermənistanın mövqeyi bunu göstərir. Rusiyanın açıqlamaları da həmin səpkidədir".**

**Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.**

O, məsələ barədə daha ətraflı "Şərq"ə danışdı: "ANAMA qalıqları taparaq beynəlxalq nümayişə çıxardı ki, icazəsi Rusiyada olan raket Azərbaycan ərazisinə atılıb. Azərbaycanın radarları raketin uçuş trayektoriyasını hesablaya bilib. Raketin zərərsizləşdirilmədiyi, boş əraziyə düşdüyü məlum olub.

Görünür, zərərsizləşdirdiyimiz də olub ki, silahın tətbiqi dağıntı yarada bilməyib. Həmçinin erməni tərəfinin kosmik rabitə vasitələri olmadığı üçün raketin dəqiq koordinatlarını hesablaya bilməyib.

Rusiyanın iddia etdiyi dəqiqlik baş verməyib. Beləliklə, Kremlin silah bazarında "İsgəndər"lə bağlı yaratdığı mifi darmadağın edilib. Azərbaycan Prezidenti, yəqin ki, hazırkı unikal imkandan da lazımi səviyyədə yararlanacaq və xeyli güzəştlərin şahidi olacağıq. Fikrimcə, bu, sırf Qarabağdakı ermənilərlə bağlı məsələyə aid ediləcək".

**Kənan**

## Ötən 5 il ərzində...

### 200-dən çox cinayətkar şəxs Azərbaycana ekstradisiya olunub



**Ədliyyə Nazirliyi tərəfindən qlobal pandemiya əlaqədar ekstradisiya sorğularının elektron qaydada qəbul olunması və baxılması təmin edilir.**

Ötən il beynəlxalq axtarışda olan adam oğurluğu, dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən şəxslərin Almaniya, Bosniya və Herseqovina, Türkiyə, Əlcəzair və s. dövlətlərdən ölkəmizə ekstradisiyasına nail olunub. Ədliyyə Nazirliyindən APA-ya verilən məlumata görə, bu gün isə xarici dövlətlərdə qeyri-qanuni fəaliyyətlə məşğul olaraq müxtəlif şəxslər üçün qanunsuz yollarla siyasi sığınacaq əldə etmək məqsədilə həmin ölkələrin dövlət qurumlarını aldatmaqla rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən Azərbaycan vətəndaşının Almaniyadan ekstradisiyası təmin edilib və o, nazirliyin əməkdaşlarının müşayiəti ilə ölkəmizə gətirilib.

Cinayətkar şəxslər Azərbaycana gətirilərkən tranzit dövlətlərin razılığının alınması üçün nazirlik tərəfindən qısa müddətdə zəruri tədbirlər görülür. Bu baxımdan qardaş Türkiyənin ölkəmizə böyük dəstəyi xüsusi qeyd olunmalıdır.

Ümumilikdə ötən 5 il ərzində 200 nəfərdən çox cinayətkar şəxslərin Azərbaycana ekstradisiyası təmin olunub.

Bununla da cəzanın labüdlüyü prinsipi təmin edilməklə cinayətkarların özlərini heç yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcək.

# Hesablama Palatasının QHT-ləri yoxlaması qanunidir

*"Şura problemlərin aradan qaldırılması istiqamətində dərhal işə başlayıb və aşkarlanan vəsait büdcəyə qaytarılıb"*




Məlum olduğu kimi Hesablama Palatası bir çox qurumlarda yoxlamalar həyata keçirir. Ötən il 30-dan çox qurumda aparılan dövlət maliyyə nəzarəti barədə yekun nəticə artıq açıqlanıb. Nəticədə 53 milyon manata yaxın vəsaitin büdcəyə bərpa olunması haqqında qərar qəbul edilib.

Hesablama Palatasının yoxlama apardığı qurumlar arasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası da var. Palatanın 3 il üzrə Şurada aşkarladığı çatışmazlıqlar nəticəsində 174.475 manat dövlət vəsaitinin büdcəyə bərpası haqqında qərar qəbul edilib. Bu vəsaitin sadəcə 23.612 manatı QHT layihələrini əhatə edib. Məlumata görə, QHT-lər müvafiq vəsaiti büdcəyə qaytarıb. Vurğulanıb ki, Şuranın təşəbbüsünə baxmayaraq qurum fəaliyyətə başladığı 2008-ci ildən ötən ilədək yoxlamaya cəlb olunmayıb. Bu baxımdan belə yoxlamaların aparılması qurumun fəaliyyətinin təkmilləşdirilməsi və daha yaxşı təşkil olunması baxımından olduqca faydalıdır. Yoxlamanın məqsədi çatışmazlıqları və pozuntuları aşkar edərək müvafiq qurumların fəaliyyətini təkmilləşdirməsinə kömək etməkdir. Müvafiq təşkilatların işi isə bu yoxlamalardan nəticə çıxararaq həmin nöqsanları aradan qaldırmaqdır.

**QHT rəhbəri, BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı "Şərq"ə açıqlamasında deyib ki, 20 ilə yaxındır qeyri-hökumət təşkilatının rəhbəridir və bu müddət ərzində çoxsaylı layihələr icra edib.** N.Orduxanlının sözlərinə görə, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə əməkdaşlığı son 10 ilə dayanır: "Obyektivlik naminə vurğulamaq istəyirəm ki, son on il ərzində Şura ilə əməkdaşlığımız yüksək səviyyədə həyata keçirilib. Qurumda şəffaflığın təmin olunmasına və obyektivlik prinsiplərinə söykənmiş addımlara dəfələrlə şahid olmuşam. Şura Azərbaycanın dövlət və milli maraqlarının qorunması, ölkəmizin dünyada tanıdılması, daxilə hesablanmış layihələrin icrası istiqamətində hər zaman qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edib, onları maliyyələşdirib. Son illərdə Şuranın yaratdığı "Səlis" proqram nəticəsində qurumla təmas sıfır səviyyəsinə endirilib. Bu da sırf şəffaflığa hesablanmış addım idi. Nəticədə hər il Şuranın maliyyələşdirdiyi yüzlərlə sosial layihələrdən on minlərlə insan faydalanıb. Xüsusən icraçı direktor Fərasət Qurbanovun xidmətini xüsusi qeyd etmək lazımdır. Görülən işləri dəyərləndirmək hər vicdanlı QHT sədrinin mənəvi borcudur".

*QHT sədri Hesablama Palatasının yoxlamalarına da münasibət bildirib:* "Hesablama Palatasının yoxlamalarına gəldikdə isə bu, zəruri və qanunidir. Fərasət Qurbanov mətbuata açıqlamasında özü qeyd etmişdi ki, Şura rəhbərliyi neçə ildir Palataya müraciət edirmiş ki, qurumda yoxlamalar aparılsın. Yoxlamalar nəticəsində bir sıra vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətində, ekspertlərə ayrılan vəsaitlərdə, daxili prosedurlarda müəyyən problemlər, çatışmazlıqlar ortaya çıxıb. Bildiyimə görə, Şura həmin problemlərin aradan qaldırılması istiqamətində dərhal işə başlayıb və aşkarlanan vəsait büdcəyə qaytarılıb. Ortaya çıxan nöqsanların aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Əlbəttə, iş olan yerdə bəzi nöqsanların ortaya çıxması mümkündür. Sadəcə onu deyə bilərəm ki, Şura donor təşkilat olaraq hər il tanınmış yüzlərlə QHT-yə öz qapılarını açıb".

**İsmayıl Qocayev**

# 9 ölkə sıradadır

## 60 döyüş təyyarəsi Türkiyəyə qarşı Egey dənizi üzərində uçacaq



**Ekspert:** *"Türkiyəyə qarşı düşmən çənbəri düzəldilməyə cəhd edilir. Bu sırada Ermənistan və Yunanıstan kimi ölkələr də var"*

Tarixində ölkədən kənarda ən böyük hərbi əməliyyatlar həyata keçirən İsrail ordusu Cənubi Kiprlə birlikdə Türkiyəyə açıq şəkildə gözdağı verib. "Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, döyüş təyyarələri, donanma və xüsusi təyinatlı qüvvələrin əsgərləri ilə yanaşı İsrailin F-35-ləri də adaya endirilib. F-35 döyüş təyyarələri üzərindəki linzalar xüsusilə diqqəti cəlb edib.

Bundan başqa Cənubi Kiprə aid olan Rusiya istehsallı 9K37M Buk raket sistemində də təəccüblü detallar aşkarlanıb. Yerli yunan mediası bu yaz mövsümündə İsrail ordusunun yenidən Kiprdə manevr edəcəyini bildirib. Yunan mediasının "İsrail hərbi komandanları Kiprə enir - Türkiyəyə qarşı" başlıqlı məqaləsi də böyük rezonans doğurub. Qeyd edək ki, mart ayında da İsrail ordusu Kiprdə beynəlxalq bir təlim təşkil etmişdi. Qatılan ölkələr arasında ABŞ və Yunanıstan xüsusi diqqət çəkmişdi. 12 apreldə başlayacaq INIOCHOS təlimində digər ölkələrin iştirakı da gözlənilir. Yaxın bir neçə gündə Fransa, Kanada, İsrail, Cənubi Kipr, Sloveniya, İspaniya və Birləşmiş Ərəb Əmirliklərindən olan döyüş təyyarələri də Yunanıstana eniş edəcək. Doqquz ölkəyə məxsus təxminən 60 döyüş təyyarəsi 22 aprelə qədər Egey dənizi üzərində uçacaq. Yunan mediası bununla Ankaraya güclü mesajın verildiyini bəyan edib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli vurğulayıb ki, Cənubi Kipr hər zaman Türkiyəyə qarşı düşmən mövqe sərgiləyib.** Politoloq qeyd edib ki, hər zaman böyük dövlətlər Cənubi Kipri, Yunanıstanı, ümumiyyətlə, Türkiyənin keçmiş ərazisi olan ölkələri Türkiyəyə qarşı silahlandırıb: "Hər zaman böyük dövlətlər onları Türkiyəyə qarşı gücləndirməyə çalışıblar. Təbii ki, zaman-zaman bunların şahidi də olmuşuq. Bir məsələni nəzərə alaq ki, Türkiyə hərbi cəhətdən günü-gündən inkişaf etməkdədir. Həmçinin hazırda Cənubi Kipr də elə böyük gücdə deyil ki, Türkiyəyə qarşı bir təhdid olsun. Amma təbii ki, Türkiyəyə qarşı düşmən çənbəri düzəldilməyə cəhd edilir. Bu sırada Ermənistan və Yunanıstan kimi ölkələr də var. Təbii ki, Türkiyə də öz növbəsində bu məsələləri daim diqqətdə saxlayır. Hesab edirəm ki, Türkiyə daim ayıq olmalıdır".

**Aynurə Pənahqızı**

# Daha 37 nəfər vəfat edib

## Bir sutkada 2 595 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 595 yeni yoluxma faktı qeydə alınıb, 1 073 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 37 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 276 464 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 244 540 nəfər müalicə olunaraq sağalıb, 3 780 nəfər vəfat edib, aktiv xəstə sayı 28 144 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 593, ötən müddət ərzində isə ümumilikdə 2 963 012 test aparılıb.*

# Evdən çıxan 7 koronavirus xəstəsi saxlanılıb

**Koronavirus xəstələri ictimai yerlərdə müəyyən olunaraq saxlanılıblar.**

"Şərq" DİN Mətbuat xidmətinə istinadən xəbər verir ki, aprelin 6-da polis əməkdaşları tərəfindən respublika ərazisində 7 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb.

Onlarla izahedici söhbətlər aparılıb, tibbi prosedurları gözlənilməklə yaşadıqları evə qaytarılıblar.

Onlardan Gəncə şəhər sakini R.Sadıqov barəsində Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb. Digər vətəndaş barəsində araşdırmalar davam etdirilir.

# Minalar hər gün can alır

## Artıq sülhməramlılara güvənimiz qalmadı

Düşmən işğalından azad edilmiş ərazilərimizdə basdırılmış minalar demək olar ki, hər gün yeni faciələrə səbəb olmaqdadır. Ötən gün itkin düşmüş hərbi qulluqçularımızın axtarışı zamanı baş verən mina partlayışında daha iki hərbçimiz xəsarət alıb. Müdafiə Nazirliyindən bildirilib ki, aprelin 6-sı günorta saatlarında keçirilən axtarışlar zamanı düşmən tərəfindən basdırılmış piyada əleyhinə mina partlayışı nəticəsində hərbi qulluqçular - Pünhan Əliyev və Bəxtiyar İlqaroğlu xəsarət alıblar. Yerevan hökumətinə minalı ərazilərin xəritəsi ilə bağlı dəfələrlə müraciət edilsə də, Ermənistan xəritələri verməkdən müxtəlif bəhanələrlə imtina edir.



Düşmən tərəf gah onlarda bu cür xəritələrin olmadığını əsas gətirir, gah da məsuliyyətin Qarabağ separatçılarında olduğunu bildirir. Ermənistandakı hərbi sistem birbaşa Rusiya hərbi sisteminin tərkib hissəsidir. Rusiyanın hərbi sisteminə əsasən isə bütün minalanmış sahələrin, hətta alay səviyyəsində belə xəritələri tərtib olunur. Ola bilər ki, kimsə özbaşına mina basdırar, yəni belə hallar istisna olunmur. Lakin geniş ərazilərin, xüsusən, keçmiş təmas xətti civarının məqsədli və planlı şəkildə minalandığına şübhə yoxdur. Ekspertlərin fikrincə, məsələ ilə bağlı beynəlxalq təşkilatlara, BMT-nin müvafiq qurumlarına, eyni zamanda Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməliyik. Ermənistan hər vasitə ilə xəritələri verməyə məcbur edilməlidir. Əks halda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesi illərlə davam edər və itkilər artar.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə vurğulayıb ki, 10 noyabrda imzalanmış üçtərəfli anlaşma məcburi xarakter daşıyırdı.** Partiya rəhbərinin sözlərinə görə, Azərbaycan özü prosesi sonadək yekunlaşdırmaq əzmində idi. Amma Rusiya tərəfi vasitəçilik etdi və məlum razılaşma imzalandı: "Ermənistan rəhbərliyi anlaşmaya qol çəkib. İndi anlaşmanın bir bəndini icra edib, digər bəndlərini görməzdən gəlmək ümumən anlaşmanın pozulması deməkdir. Əgər üçtərəfli razılaşmaya əməl olunmursa, o zaman Rusiya sülhməramlıları da bölgəni tərk etməlidir. Anlaşmaya əsasən, atəşkəs bərpa olunubsa, buna mütləq riayət edilməlidir. 10 noyabrdan sonra hərbçilərimiz, mülki şəxslərimiz minaya düşərək həlak olublar, yaralanıblar. Nə fərqi var ki, onlar ya snayper atəşindən, ya artilleriyadan, yaxud minadan həlak olublar. Bunların hamısı döyüş vasitəsidir. Atəşkəsin davamlı olması üçün minalanmış ərazilərin xəritəsi mütləq bizə təhvil verilməlidir. Əgər ermənilər minaları xəritəsiz, hara gəldi basdırıblarsa, bunun özü müharibə cinayətidir. İctimaiyyət narazılıq etməkdə tam haqlıdır. Rusiya sülhməramlılarının nəzarət etdiyi yerlərdə minalar partlamır. Deməli, rusların əlində xəritələr var. Bu o deməkdir ki, rus sülhməramlıları da ermənilərlə əməkdaşlıq edirlər. Bölgədə ya rus sülhməramlıları, ya da erməni silahlıları olmalıdır. Yəni ikisindən biri qalmalıdır. Çünki üçtərəfli anlaşmada göstərilib ki, Rusiya sülhməramlılarının bölgəyə daxil olması ilə paralel erməni silahlıları oranı dərhal tərk etməlidir. Amma erməni yaraqlıları bugünədək Qarabağda qalmaqdadır. Rusiya sülhməramlıları isə öz işlərindən başqa hər şeylə məşğul olurlar. Halbuki, onların missiyasından biri də mülki əhalinin zərər görməsinin qarşısının alınmasıdır. Tərəflərdən birinin digərinə xələl yetirməsinə mane olmaqdır".



**"Atəşkəsin davamlı olması üçün minalanmış ərazilərin xəritəsi mütləq bizə təhvil verilməlidir"**

**F.Quliyev bildirib ki, Rusiya sülhməramlılarına ciddi şəkildə irad bildirilməlidir:** "Onlar bir çox məsələni açıq-aşkar formada ermənilərin xeyrinə həll etməyə çalışırlar. Özbaşına hərəkətlər edirlər, separatçılarla görüş keçirirlər. Hətta erməni mətbuatı yazır ki, ruslar Şuşa yoluna tanklar qoyub ki, Azərbaycan əsgəri ora gəlməsin. Laçın dəhlizindən 2,5 kilometr sağa və sola ancaq ruslar nəzarət etməlidir və s. Biz üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsini tələb edirik. Əfsuslar olsun ki, razılaşmanın bir çox bəndinə əməl olunmur. Məsələn, BMT vasitəçiliyi ilə öz doğma yurdlarından qovulmuş azərbaycanlılar hələ də qaytarılmayıb. Xankəndindən 1200-dən çox ailə zorla çıxarılıb və onların da geri dönüşü ilə bağlı heç bir iş görülməyib. Ruslar isə Qarabağa ermənilərə ev tikməklə məşğuldur. Yeni qəsəbələr salmaq haqqında düşünürlər. Burunlarını hara gəldi soxurlar. Artıq sülhməramlılara güvənimiz yoxdur. Fikrimcə, çox ciddi şəkildə bu məsələlərə qol qoymaq lazımdır. Parlament səviyyəsində mövzu müzakirə olunmalıdır. Hər gün itki verəsi deyilik ki?! Azərbaycan qalib tərəfdir, ermənilərdən nəyisə xahiş edəsi deyilik. Düşmən bizə vurduğu zərəri tam ödəməlidir, pulu yoxdursa, əvəzində torpaq verməlidir".

**İsmayıl Qocayev**

# 6 il əsirlikdə yaşamaq heç kimə adi gəlməsin

## "Dilqəmlə Şahbazın bu illəri çox məşəqqətli, işgəncələrlə keçib"





6 il erməni girovluğundan sonra düşmən əsarətindən xilas edilən vətəndaşlarımız - Dilqəm Əsgərov və Şahbaz Quliyevin səhhəti ilə bağlı narahatedici xəbərlər yayılmaqdadır. Ötən gün mətbuata açıqlama verən Dilqəm və Şahbaz sağlıq durumlarından gileyləniblər. Dilqəm Əsgərov vəziyyətinin heç də yaxşı olmadığını bildirib:

"Vəziyyətim heç də ürəkaçan deyil. Ağrıyıram, müalicə lazımdı, amma heç bir yardım olunmur. Bakıya müayinə olunmağa gəlmişəm. Başımda əzilən yerlər və mədəmdə problemlər var". Şahbaz Quliyev isə ayaqlarında ciddi problem olduğu üçün işləyə bilmədiyini bildirib: "Ailədə və mənim sağlıq durumumda vəziyyət o qədər də yaxşı deyil. Bəzən yeməyə çörək belə tapmırıq desəm, yalan olmaz. Yoldaşım restoranda qabyuyan işləyirdi. Amma restoran bağlandığı üçün o da işdən çıxıb. İş üçün müraciət etmişəm, amma ayaqlarım yaxşı işləmədiyi üçün işə götürmürlər".

İctimaiyyət nümayəndələri hesab edirlər ki, erməni girovluğunda olmazın əzablar görmüş, sözün əsl mənasında cəhənnəm həyatı yaşamış hər iki şəxs daim diqqət mərkəzində olmalıdır. Ən azından səhhətləri və həyat şəraitləri normallaşanadək dövlət qurumlarının qayğısını hiss etməlidirlər.

**"Bu gün gərək onların səhhətini Kəlbəcər Rayon İcra Hakimiyyəti diqqətdə saxlasın"**

**Millət vəkili Elman Məmmədov "Şərq"ə bildirib ki, Dilqəm və Şahbaz 6 il ən qəddar düşmənin əsarətində qalıblar. Deputatın sözlərinə görə, onların altı ili çox məşəqqətli keçib, dəhşətli işgəncələrə məruz qalıblar:** "Uzun müddət düşmən girovluğunda qalmış şəxslərin sağlamlıqlarının yerində olmaması təbiidir. 6 il əsir həyatı yaşamaq insanlara adi gəlməsin. Xocalı soyqırımı vaxtı xeyli insanımız üç-beş gün, bir həftə, ay ərzində əsirlikdə qalmışdılar. Onlar geri qayıtdıqdan sonra səhhətlərində çox ciddi problemlər əmələ gəldi. Çoxu qaytarıldıqdan bir neçə gün sonra həyatını itirdi. Eynilə iki qardaşımız da altı il zülm görüblər, əzab-əziyyət içində olublar. Ona görə də onlara qayğı-diqqət göstərilməsi vacibdir. Həm sağlamlıqları bərpa olunmalı, həm də dolanışıqları yaxşılaşdırılmalıdır. Əlaqədar qurumlar üzərinə düşəni etməli, tədbirlər görməlidirlər. İlk növbədə Dilqəm və Şahbazın sakini olduqları Kəlbəcər rayonunun İcra Hakimiyyəti bu işlə məşğul olmalıdır. Düzdür, hər şey icra hakimlərinin səlahiyyətində deyil, ancaq mövcud problemlə bağlı digər dövlət qurumları qarşısında məsələ qaldıra bilərlər. Aidiyyəti strukturlar əsirlikdən yeni qayıdan şəxslərin səhhəti və sosial durumunu daim nəzarətdə saxlamalıdır. Ailədə əmək qabiliyyətli insanlar mütləq işlə təmin olunmalıdır. Yaqin ki, Dilqəm və Şahbazın yaşa görə təqaüd təminatları da var".

Parlament üzvü vurğulayıb ki, beynəlxalq aləmdə erməni vəhşiliklərini daha yaxşı tanıtmaq üçün Dilqəm və Şahbaz lazımlı şəxslərdir: "Onları qorumalıyıq və beynəlxalq müstəvidə erməni vəhşiliyinin ifşası prosesinə sövq etməliyik. 6 il erməni girovluğunda başlarına gətirilən oyunlardan, zülm və işgəncələrdən danışmaları üçün geniş imkan yaratmalıyıq. Görünür, diqqətdən kənarda qalıblar. Sağlamlıqları ilə yanaşı, ailə vəziyyətlərində də problemlər üzə çıxıb. Problemlərin aradan qaldırılması üçün əlimizdən gələni etməliyik. Millət vəkili kimi çağırış edirəm ki, bu cür insanları qorumaq, yaşatmaq lazımdır".

**İsmayıl Qocayev**

## Əməliyyatdan sonra yaxşılaşıb

### Əsirlikdən qayıdan Aminin səhhətində irəliləyiş var



**Son Qarabağ savaşında əsir düşən, ötən il dekabr ayının 14-də Vətənə qaytarılan Amin Musayevdən xəbər var.**

O, səhhəti ilə bağlı "Şərq"ə danışıb. Amin bir ay öncə əməliyyat olunduğunu söyləyib: "Əməliyyatdan sonra yaxşıyam. Müalicələrim davam edir. Hələ həkimlər ayağımı yerə basmağa icazə vermirlər. Xəstəxanaya gedib-gəlirəm. Sonuncu dəfə 10 gün əvvəl həkimin yanında idim. Dedi ki, ayağının durumunda irəliləyiş var. Yenə yoxlanışa gedəcəm, o zaman tam vəziyyət bilinəcək".

**Samirə**

## 84 yaşlı məktəb direktoru koronavirusdan ölüb

### O, Bakıdakı xəstəxanalardan birində müalicə olunurdu



**Qax rayonunda məktəb direktoru koronavirusdan dünyasını dəyişib.**

"Report"un Şimal-qərb bürosunun məlumatına görə, bu, Qax şəhər 2 saylı məktəb-liseyin direktoru, 1937-ci il təvəllüdlü Şəkər Abdullayevadır.

Qeyd edək ki, 84 yaşlı məktəb direktoru bir müddət əvvəl koronavirusa yoluxub. O, Bakıdakı xəstəxanalardan birində müalicə olunurdu.

Ş.Abdullayeva 1959-cu ildən pedaqoji fəaliyyətinə başlayıb, işlədiyi müddət ərzində 69-a qədər diplom və fəxri fərmanlarla təltif olunub. O, 1979-cu ildən ömrünün sonuna qədər rayonun ən böyük məktəbinə rəhbərlik edib. Ş.Abdullayeva 2005-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

## Satışa üzərində "Şuşa" yazılan siqaretlər çıxarılıb

### Millət vəkili bunu normal qarşıladı, "cinayət deyil" dedi






**Son günlər ölkədə üzərində "Qarabağ" yazılan, adı da "Şuşa" olan siqaretlər satışa çıxarılıb.**

Həmin hadisə sosial şəbəkələrdə, eləcə də yerli mətbuatda birmənalı qarşılanmayıb. Qarabağın xalqımız üçün həssas bir bölgə olması hər kəsə bəllidir.

Maraqlıdır ki, üzərində "Şirvan", yaxud da "Bakı" olan siqaretlər heç də aqressiya doğurmamışdı. Bəlkə də bu, Qarabağ mövzusunun aktual olduğu bir zamanda baş verdiyinə görə sərt reaksiya doğurub.

Məsələni millət vəkili Razi Nurullayev "Şərq"ə olan açıqlamasında belə şərh edib: "Siqaret çəkmirəm. Ona görə də siqaret adları, həmçinin də bu adda siqaretin olmasından xəbərdar deyiləm. Amma ümumilikdə mən buna pis baxmıram. Həmin adlar da qanunla tənzimlənir. Mən gözümü açandan görmüşəm ki, Qarabağ, Şuşa adları hər yerə verilib. Kafe, restoran və s. Bu gün də nəyəsə və ya harasa həmin adların verilməsi böyük bir cinayət deyil.

Amma hər halda narahatlıq yaranıbsa, bununla bağlı aidiyyəti qurumlar cavab verməlidir. Mən isə bunu mənfi qəbul etmirəm".

**Ağarza**

# 300 manat cəriməsi var

## Doğum haqqında məlumat dərhal TƏBİB-ə ötürülməlidir

Doğumun qeydə alınması qaydasının pozulmasına görə cərimə səlahiyyəti TƏBİB-ə verilir. Bu, Milli Məclisdə müzakirəyə çıxarılacaq İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.



Dəyişikliyə əsasən, tibb müəssisəsi tərəfindən doğum haqqında məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) TƏBİB-ə dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə vəzifəli şəxslər yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə ediləcək.

**"Bu, nikahdankənar dünyaya gələn uşaqlarla bağlı tədbirin görülməsi üçün nəzərdə tutulub"**

**Məsələ ilə bağlı "Şərq"ə öz fikirlərini bildirən sosioloq Lalə Mehralı deyib ki, bunu gizlədən hər hansı vəzifəli şəxs və ya tibb müəssisəsi qanun qarşısında cavab verməlidir:** "Hesab edirəm ki, bu, nikahdankənar dünyaya gələn uşaqlarla bağlı tədbirin görülməsi üçün nəzərdə tutulub. Nikahdankənar dünyaya uşaq gətirən kifayət qədər insan var ki, onlar bu zaman tibb müəssisəsinə müraciət etməli olurlar. Tibb müəssisəsində nikah haqqında şəhadətnamə və valideynlərin şəxsiyyətini təsdiq edən sənədlər tələb edilir. Əgər bu sənədlərdən hər hansı biri yoxdursa, keçərli səbəb olmalıdır. Belə hallar əsasən ya azyaşlı, ya da nikahı olmayan birinin uşaq dünyaya gətirdiyi zaman baş verir. Sirr deyil ki, nikahdankənar dünyaya uşaq gətirənlərin əksəriyyəti yetkinlik yaşına çatmayan qızlardır. Bu səbəbdən hansısa tibb müəssisəsi məsələni ört-basdır edirsə, yaxud vəzifəli şəxs onu pul müqabilində gizlədirsə, mütləq qanun qarşısında cavab verməlidir".

**Aytac Ali**

# Ermənistan Rusiyadan qopa bilməyəcək



Rusiya və Ermənistanın Müdafiə nazirləri Sergey Şoyqu və Vaqarşak Arutunyan arasında telefon danışığı baş tutub. Tərəflər Zəngəzurun təhlükəsizliyi ilə bağlı bir sıra məsələləri müzakirə ediblər.

## *Bu ərazidə Rusiya öz varlığını, hərbi nəzarətini gücləndirir*

Məlumatda qeyd olunur ki, nazirlər 102-ci hərbi bazanın və Ermənistanla Rusiyanın Birləşmiş Silah Qoşunlarının fəaliyyətini müzakirə ediblər. Şoyqu və Arutunyan Ermənistan ordusunda başlayan genişmiqyaslı islahatları da nəzərdən keçiriblər.

Müdafiə nazirləri Rusiya sülhməramlı kontingentinin Qarabağın dağlıq hissəsindəki işi barədə də danışıblar.

**Politoloq Sədrəddin Soltan "Şərq"ə açıqlamasında bildirib ki, Rusiyanın Ermənistan üzərində böyüklüyü həmişə olub və olacaq:** "102 saylı hərbi hissə 45 ildən çoxdur ki, Ermənistanla Rusiya arasında olan müqavilədə mövcuddur. Həmin hərbi hissə Rusiyanın Cənubi Qafqazdakı yeganə bazasıdır. Ona görə də Rusiya onun mövcudluğu ilə bağlı davamlı şəkildə maraqlanır.

Heç kimə sirr deyil ki, Ermənistan Rusiyanın bir əyaləti kimidir. Bu ərazidə Rusiya öz varlığını, hərbi nəzarətini gücləndirir.

Sonuncu Qarabağ müharibəsi bir daha göstərdi ki, Rusiyasız Ermənistan mövcud ola bilməz. Seçkiöncəsi Robert Koçaryanın Rusiyaya səfəri, aprelin 7-si Nikol Paşinyanın Putinlə görüşü onu göstərir ki, Ermənistan Rusiyadan qopmayıb və qopmayacaq. Ermənistan o vaxt müstəqil olacaq ki, onda Rusiya olmayacaq. Rusiya olmayanda Ermənistan da olmayacaq.

Ona görə də Rusiya onlarla daim əlaqə saxlayır, eləcə də əlaqələrini genişləndirir".

**Politoloq onu da qeyd edib ki, bu, Ermənistan və Rusiya hərbi rəsmilərinin həftə ərzində ikinci görüşüdür:** "Əlavə olaraq, hazırda Rusiyada hərbi təlimlər keçirilir. Hərbçilərin döyüşə hazırlıq vəziyyəti yoxlanılır. Ola bilər ki, bu təlimlər Rusiyanın Gümrüdəki hərbçilərinə də şamil edilsin.

Müdafiə nazirlərinin sülhməramlıların işini müzakirə etməsi də buna daxildir. Çünki Ermənistan ordusu hələ də Qarabağın işğalda qalan bir hissəsində saxlanılır. Onlar Qarabağda şübhəsiz ki, Rusiyanın təminatı və razılığı ilə mövcuddurlar".

**Ağarza Elçinoğlu**

## Şimali Koreyada niyə heç kim koronavirusa yoluxmur?



**Bütün dünyaya yayılan koronavirus epidemiyasının başlanmasından bəri Şimali Koreyada heç bir yoluxma olmayıb. Bu barədə Pxenyan rəhbərliyi Ümumdünya Səhiyyə Təşkilatına məlumat verib.**

Çinin Vuhan bölgəsindən yayılan koronavirus bu günə qədər dünyada 133 milyondan çox yoluxma və 2,8 milyondan çox insanın ölümünə səbəb olub.

Dünyanın ən təcrid olunmuş ölkəsi olaraq bilinən Şimali Koreyada isə heç bir yoluxmanın olmadığı iddia edilir.

Qeyd olunub ki, ölkədə 23 min 121 test edilsə də, onların hər birinin nəticəsi neqativ olub. Bu sözləri ÜST-nin Şimali Koreyadakı nümayəndəsi Edvin Salvador deyib. O bildirib ki, təkcə 26 mart-1 aprel tarixləri arasında 732 nəfər koronavirus testi edilib. Lakin nəticələrin hər biri neqativ olub.

Epidemiyaya qarşı mübarizənin "milli varlıq məsələsi" olaraq qəbul edildiyi Şimali Koreyada səlahiyyətlilər Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) təqdim olunan son hesabatda da ölkə daxilində heç kimin koronavirusa yoluxmadığını bildirilib.

**Ağarza**

# Seçkilərdə Ruhani məğlub olacaq

İranda iyun ayının 18-nə təyin olunmuş prezident seçkilərində iştirak etmək üçün namizədlərin qeydə alınması başa çatır. Bu, islam ölkəsində dini liderdən sonra ölkənin ikinci şəxsinin seçilməsi regionda və beynəlxalq aləmdə diqqət çəkən hadisə ola biləcəyi şübhəsizdir. ABŞ-da keçirilmiş prezident seçkilərindən bir ilə yaxın müddət ötməsindən sonra təşkil ediləcək bu seçkilərdə beynəlxalq, yoxsa regional güclərin söz sahibi olacaqları müzakirə mövzusudur.

## *Keçmiş prezident Məhəmməd Hatəminin imkanlarını yüksək qiymətləndirir*



**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov seçkilərin nəticələrinə dair proqnozunu "Şərq"lə bölüşdü:** "Ötənilki parlament seçkilərində qalib gəlmiş mühafizəkar qüvvələrin reforma tərəfdarlarını onların son dayaqlarından - icraedici hakimiyyətdən məhrum etməyə geniş imkan yaranıb. Bu haqda artıq proqnozlar verilməkdədir. Mühafizəkar prezidentin Amerika və Qərb üçün nə qədər çətin tərəf-müqabili olacağı qabaqcadan bilinsə də, beynəlxalq qüvvələr reformaçıların qələbəsi üçün zəruri şəraiti yaratmaq istəmədilər. Onlar İranla daha böyük qarşıdurmanı üstün tuturlar. Başda Həsən Ruhani olmaqla Amerikanın tətbiq etdiyi sanksiyaların aradan qaldırılmasına və iqtisadi reformalar keçirməyə nail ola bilməyən reformaçılar çox mürəkkəb vəziyyətlə üz-üzədirlər: keçmiş prezident Mahmud Əhmədnejad və Parlament spikeri Məhəmməd Qalibafın da dəstəkləyəcəyi mühafizəkarlardan birinə qarşı çıxa biləcək və liberal qüvvələri birləşdirmək funksiyasını həyata keçirə bilən şəxsi tapıb ortaya çıxarmaq lazımdır. Martın 16-da start verilmiş prezident seçkisi kampaniyasında 2 mindən artıq namizədin iştirak edəcəyi gözlənilsə də, hələ aydınlaşdırılmalı çoxlu məsələlər mövcuddur. Seçkilərdə iştirak edəcək namizədlərin siyahısı hələ elan olunmayıb. Formal olaraq İran vətəndaşlığını daşıyan, islam dininə itaət edən, qənaətbəxş tərcümeyi-hala malik hər bir İran vətəndaşı prezident seçilə bilər. Lakin prezident kürsüsünə real namizədlərin sayı barmaqla sayılacaq qədər azdır. Namizədlərin əksəri ən layiqli namizədlərin seçilməsi üçün filtr funksiyasını yerinə yetirən Konstitusiya Mühafizəsi Şurasının keçirdiyi seçimdə "ilişib qalaraq" "finişə" çata bilməyəcək. Şuranın seçkiyə buraxdığı şəxslərin təbliğat kampaniyası seçkiyə ən azı bir ay qalmış başlayacaq. Məhz bundan sonra hansı cəbhənin nümayəndəsinin qalib gələcəyi haqqında müəyyən proqnoz vermək olar. Amma indidən İranı Həsən Ruhaninin 8 illik hakimiyyətindən fərqli bir hakimiyyətin gözlədiyini demək mümkündür".

**Professor, həmçinin ABŞ-ın seçkilərə münasibətindən də danışdı:** "2013-cü ildə ölkəni beynəlxalq izolyasiyadan çıxarmaq, vaxtı çatmış sosial-iqtisadi reformaları həyata keçirmək şüarları altında seçkilərdə qalib gələn Ruhani 8 ildən sonra əldə etdiyi heç bir nailiyyətlə fəxr edə bilmir. Bu da mühafizəkarların əlinə qalib gəlmək üçün ciddi arqumentlər verir. Ruhaniyə qarşı irəli sürülən iddialar isə yetərincədir: iqtisadiyyatın geriləməsi, investisiyaların ölkədən çıxarılması, İran İslam Respublikasının bütün tarixi boyu ən yüksək səviyyədə inflyasiya, fond bazarının yıxılması, dolların kursunun 700 faizlik artımı, mənzil tikintisinin 50 faiz aşağı düşməsi, sosial bərabərsizliyin təhlükəli həddə çatması və s. İndi qarşı cəbhənin nümayəndələri Həsən Ruhaniyə 2013-cü il prezident seçkiləri zamanı onun Mahmud Əhmədnejada qarşı istifadə etdiyi "Bütün uğursuzluqlara görə prezident cavabdehdir" şüarını xatırladırlar. Tramp hakimiyyətinin 2015-ci ildə bağlanmış 5+1 müqaviləsindən çıxması və bunun ardınca sanksiyaları gücləndirməsi, yeni sanksiyaların tətbiq edilməsi, pandemiyanın yaratdığı problemlər Ruhani hakimiyyətinə vurulan ən böyük zərbə idi. Bunlar reformaçıları 2021-ci ildə keçiriləcək prezident seçkilərində faydalana biləcəkləri bütün layihələrdən məhrum etdi. Amerikanın dövlət başçısı Co Bayden "Birgə Əhatəli Fəaliyyət Planına" qayıtmaq fikrində olduğunu ifadə edən işarələr versə də, bu sahədə ciddi irəliləyiş yoxdur. Ehtimal olunur ki, Amerika seçkilərin taleyinə təsir göstərə biləcək addım atmayacaq. Çünki bu dövlət yenə də İranın sanksiyaların qeyd-şərtsiz olaraq aradan qaldırılması çağırışlarına müsbət cavab vermir. Uğursuzluqlara baxmayaraq, Ruhani hökuməti axıra qədər mübarizə aparmaqda israrlıdır. Son zamanlar İranın Çin Xalq Respublikası ilə "İkitərəfli Əhatəli strateji Əməkdaşlıq" haqqında müqavilə imzalaması və Rusiyanın aparıcı rol oynadığı Avrasiya İqtisadi Əməkdaşlıq təşkilatına üzv olmaq haqqında danışıqlar aparması elektoratın reformaçılara tərəf istiqamətlənməsində mühüm rol oynayacağını göstərir. Xüsusilə Çin ilə imzalanmış və müxtəlif sahələri əhatə edəcək müqaviləyə İranda böyük ümidlə baxırlar. 25 il ərzində olsa belə, Çinin vəd etdiyi 450 milyard dollarlıq investisiya İran üçün çox böyük əhəmiyyət kəsb edəcək. Amma bu müqavilədən yaxın gələcəkdə keçiriləcək seçkilərdə reformaçıların bir nailiyyət kimi istifadə edə biləcəyi mürəkkəb görünür. Müqavilənin lazımi səviyyədə təbliğ olunması üçün qalan vaxt və imkandan maksimum istifadə edilərsə, buna nail olmaq mümkündür".

**Politoloq digər əsas namizədlərin adlarını da açıqladı:** "Digər tərəfdən belə şəraitdə ötən ilin fevral ayında keçirilmiş parlament seçkilərində inamlı qələbəyə imza atmış və parlamentə nəzarəti ələ keçirmiş mühafizəkarların prezident postunu da əldə etmələri üçün hər cür imkanları var. İyun seçkilərində mühafizəkarların irəli çıxaracaqları və qalib gəlmək imkanları olan namizədlər arasında keçmiş prezident Mahmud Əhmədnejadın, 2013-cü ildə keçirilən seçkilərdə Həsən Ruhaninin əsas rəqibi olmuş Tehran şəhərinin keçmiş meri və hazırkı parlament spikeri Məhəmməd Qalibafın və Ali Məhkəmənin sədri İbrahim Rəisinin adı hallandırılır. İbrahim Rəisi 2017-ci ildəki seçkilərdə iştirak etmiş və Həsən Ruhaniyə bu seçkini uduzmuşdur. Reformaçılara gəlincə, onların sırasında mühafizəkar qüvvələrlə rəqabətə girə biləcək potensial namizəd gözə dəymir. Həsən Ruhanidən sonra onun komandasında ən ciddi fiqur Xarici işlər naziri Cavad Zərif hesab olunur. Amma onun prezident olmaq ambisiyaları haqqında ciddi məlumat yoxdur. Bu sırada yenə də keçmiş prezident Məhəmməd Hatəminin imkanlarını yüksək qiymətləndirir və ona reformaçıları bir arada birləşdirə biləcək qüvvə kimi baxırlar. Qeyd olunanlar İranda iyun ayı üçün nəzərdə tutulan seçkilər haqqında bugünkü vəziyyətdən çıxış edərək verilə bilən proqnozlardır. Amma seçkidə iştirak üçün qeydiyyatdan keçən namizədlərin siyahısının dərc olunması günündən başlayaraq, hətta seçki bitənədək zaman-zaman yeni sürprizlərin ortaya çıxacağı şübhəsizdir".

**Kənan**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Su ehtiyatları prioritetə çevrilir

## Əsas məsələ itkilərin azaldılmasıdır

"Bu sahə prioritet sahələrdən biridir. Mən bu sahəyə həmişə çox böyük diqqət göstərmişəm. Bu gün, indiki şəraitdə bu sahənin əhəmiyyəti daha da artır. Son illər ərzində bu sahədə böyük işlər görüldü. Köhnə infrastrukturun təmiri ilə bağlı əsaslı işlər görülmüşdür. Çünki əsas infrastruktur sovet dövründə yaradılmışdı və vaxt keçdikcə yararsız vəziyyətə düşmüşdü, ona görə buna ehtiyac var idi. Eyni zamanda, mənim təşəbbüsümlə bir neçə böyük su anbarı inşa edilmişdir.



Əgər vaxtında bu su anbarları inşa edilməsəydi, bu gün meliorasiya sahəsində bizim böyük problemlərimiz ola bilərdi". Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə sədr təyin olunmuş Zaur Mikayılovu videoformatda qəbulu zamanı söyləyib. Cənab Prezidentin su ehtiyatları, əhalinin içməli su ilə təmnatı, suvarma məsələləri, meliorasiya sahəsinə daim diqqətlə yanaşdığı danılmazdır. Ötən qısa müddət ərzində cənab Prezident bu sahə ilə bağlı bir neçə vacib sərəncamlar imzalayıb. Struktur dəyişikliklərinin həyata keçirilməsinə nail olub. Müasir dövrümüzdə yüksək texnologiyaların tətbiqi, dünya standartları ilə ayaqlaşmaq zərurəti nəzərə alınaraq meliorasiya sahəsində islahatların aparılmasına nail olunub. Prezidentin yürütdüyü siyasətdən aydın görünür ki, sosial rifah Azərbaycan dövlətinin əsas prioriteti olaraq qalmaqdadır. Cənab Prezident çıxışlarında su təminatı ilə bağlı müəyyən problemlərin həllini ilk növbədə məhz əhalinin içməli suya tələbatının ödənilməsi, həmçinin kənd təsərrüfatında suvarma məsələləri ilə bağlı yaranmış çatışmazlıqların aradan qaldırılmasında görür. Bütün bunlar vətəndaşların rifah halının yaxşılaşmasına, vətəndaş maraqlarının təminatına xidmət edən dövlət siyasətidir.

### Ölkəmizin su ehtiyatları boldur, lakin

Son illərdə cənab Prezidentin təşəbbüsü ilə bir neçə su anbarı inşa edildi. Məqsəd həm içməli su tələbatının ödənməsi, eyni zamanda meliorasiya problemlərinin həllini tapması idi. Məsələn, Taxtakörpü su anbarı suvarma işləri ilə bərabər, həmçinin Bakının da içməli su ilə təmin edilməsində önəmli infrastruktur obyektidir. Taxtakörpü-Ceyranbatan su kanalının çəkilməsi Ceyranbatan su anbarında suyun səviyyəsinin lazımi səviyyədə saxlanmasına şərait yaradır. Son illərin quraqlığı nəzərə alınarsa, birmənalı şəkildə demək olar ki, vaxtilə Taxtakörpü su anbarı və su kanalı tikilməsəydi, Bakıda kəskin su problemi yaşanacaqdı. Taxtakörpü su anbarından sonra Şəmkirçay su anbarı inşa edildi. Nəticədə ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilməsi təmin edildi. Hazırda bu özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında göstərir. Prezident də çıxışı zamanı vurğuladı ki, meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə Azərbaycan kimi su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti var: "Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub

### Su ehtiyatlarından səmərəli istifadə üçün doğru təhlil aparmaq, proqnoz vermək lazımdır

və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər biz, əlbəttə ki, suyun səmərəli istifadəsindən də həmişə narahat idik. Bu sahədə əldə edilmiş uğurlar var, eyni zamanda, çətinliklər, çatışmazlıqlar var. Bunlar aradan qaldırılmalıdır". Mütəxəssislər də bu fikirdədir ki, suvarma olmadan kənd təsərrüfatında məhsuldarlıqdan söhbət gedə bilməz. Fermerlərin bol məhsul yetişdirəcəyini, yüksək gəlir əldə edəcəyini də söyləmək çətindir. Halbuki, hər iki məsələ aqrar sektor üçün və vətəndaşların gəlirlərinin artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında meliorasiya sahəsində işlərin düzgün aparılmasının aqrar sektorun, fermer təsərrüfatlarının inkişafında mühüm əhəmiyyət daşıdığını söylədi:**

- Su ehtiyatlarından səmərəli istifadəyə nail olmaq üçün idarəetmədə müasir yanaşma tətbiq edilməlidir, müasir texnologiyalar ölkəmizə gətirilməlidir. Bu, birmənalıdır. Bunun üçün də meliorasiya məsələlərinə cavabdeh qurumda islahatlar mütləqdir. Prezidentin çıxışından görünür ki, dövlət başçısı bunda maraqlıdır. Qalır, quruma rəhbərlik edənlərin vəzifələrini səriştə ilə yerinə yetirmələri. Azərbaycan hər cəhətdən zəngin ölkədir. Təbii ehtiyatlarımız yetərincədir. Amma bu resurslardan səmərəli istifadə olunmalıdır. Səmərəli istifadə edilməyəndə ağır nəticələrə gətirib çıxaran problemlər yaranır. Nəyə görə bizdə su itkiləri rekord həddə olmalıdır? Prezident də çıxışında vurğuladı ki, bu itkilər bəzi hallarda təbii xarakter daşıyır, amma bəzi hallarda səhlənkarlıq ucbatından, məsuliyyətsizlikdən qaynaqlanır. Su ehtiyatları, suyun istifadəsinə dair hesablamaların aparılmaması işləri çətinləşdirir. Ona görə Prezidentin dediyi kimi, tam uçot aparılmalı, su anbarlarına daxil olan və oradan çıxan suyun həcmi müəyyənləşməlidir. Düzgün təhlil aparmaq, proqnoz vermək bu zaman mümkün olacaq. Əsas məsələ itkilərin azaldılmasıdır.

### "İşğaldan azad edilmiş torpaqlar bizə böyük üstünlük verir"

**İqtisadçı bu fikirdədir ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında Azərbaycan Ordusunun 30 ilə yaxın bir müddətdə işğal altında qalan torpaqlarımızı azad etməsi ümumilikdə ölkə iqtisadiyyatına böyük üstünlük verir:**

- İqtisadiyyat dedikdə, təkcə sənaye, neft-qaz hasilatı, enerji resursları nəzərdə tutulmur. Kənd təsərrüfatının ölkə iqtisadiyyatının inkişafında payı böyük olmalıdır. Dünənədək bəzən belə fikirlər səslənirdi ki, ərazilərimizin 20 faizi işğal altındadır, əkinə yararlı torpaq sahələri, münbit torpaqlar, su ehtiyatlarımızın ən mühüm hissəsi işğal altındakı torpaqlarda qalıb. İnkar etmirəm. Bəli, ümumilikdə Qarabağ bölgəsi münbit torpaqlarla, su ehtiyatları ilə, təbii sərvətlərlə zəngindir. Lakin biz yenə də köhnə metodlarla işləsək, yenidən əldə etdiyimiz, həm də şəhidlərimizin qanı bahasına azad etdiyimiz torpaqlarda da kənd təsərrüfatını gözlənilən və istənilən səviyyədə inkişaf etdirə bilməyəcəyik. Bu sahədə köklü və zəruri islahatlara ehtiyac var. Prezident Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə sədr təyin olunmuş Zaur Mikayılovu videoformatda qəbulu zamanı yeni texnologiyaların tətbiqi məsələsinə toxundu. Dedi ki, torpaq kanallar dövrü başa çatmalıdır. Ancaq onun əvəzinə hansı texnologiyalar gətiriləcək, bunu artıq Cəmiyyət müəyyən etməlidir. Bu sahənin mütəxəssisləri var. Dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalıdır, iqlimi bizim iqlimimizə oxşar olan ölkələrin təcrübəsindən faydalanmaq lazımdır. Elə ölkələr var ki, orada su resursları bizimkindən də azdır, ancaq məhsuldarlıq qat-qat çoxdur. Ona görə bütün bunlar gərək dəqiq araşdırılsın, düzgün fəaliyyət planı tərtib edilsin, lazım olarsa, Dövlət Proqramı qəbul olunsun ki, biz bundan sonrakı illərdə meliorasiya və suvarma sahəsində dünyanın ən müasir prinsiplərini ölkəmizdə tətbiq edək.

### Dövlət vətəndaşlarını daim dəstəkləyir

*F.İbrahimov fermerlərə ayrılan subsidiyalar, dövlətin vətəndaşların kəsirlərini qarşılaması məsələsinə də diqqət yetirilməli olduğunu bildirdi:*

- Fermerlər, kəndlilər daha yaxşı məhsul götürsünlər, özləri üçün daha yaxşı şərait yaratsınlar, onların həyat səviyyəsi yüksəlsin deyə, dövlət bütün xərcləri öz üzərinə götürür. Kənd təsərrüfatı sahəsində fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar, bu sahənin inkişafı, ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasına xidmət edir. Məlumdur ki, bu, Azərbaycanda artıq bir növ sosial sahə kimi qəbul olunur. Dövlət kənd təsərrüfatı ilə məşğul olan vətəndaşları daim dəstəkləyir. Subsidiyaların həcminin artırılması buna sübutdur. Bəs necə olur ki, kəndli də, fermer də yenə çətinliklə üzləşir, əkin sahəsini vaxtlı-vaxtında suvara bilmir, nəticədə məhsuldarlıq əldə etmir, qazancı aşağı səviyyədə olur? Burada su ehtyatlarının bölünməsində qeyri-mütənasiblik, suyun ədalətsiz bölünməsi üzə çıxır. Prezidentin tapşırığına əsasən bu məsələ ilə bağlı təhlil aparılıb. Nə ortaya çıxıb? Suyun ədalətsiz bölüşdürülməsi hallarının geniş vüsət aldığı. Prezident də dedi ki, həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə ediblər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlilərə suyun çatmaması əlbəttə gözlənildi. İndi Prezident göstəriş verib, təhlillər, araşdırmalar aparılır. İnanırıq ki, problemlər həllini tapacaq. Hazırda ən önəmli məsələlərdən biri - azad edilmiş torpaqlarda meliorativ tədbirlərin həyata keçirilməsidir. Azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimiz, su ehtiyatlarımız var. Uzun illər ərzində bu imkanlardan məhrum idik. İndi isə artıq əlimizdə, ixtiyarımızda zəngin su ehtiyatları var. Gərək bunlardan səmərəli istifadə olunsun ki, ötən illərdəki problemlər, çatışmazlıqlar yenidən baş qaldırmasın. Suqovuşan qəsəbəsi işğaldan azad edilib, Suqovuşan su anbarı Azərbaycanın nəzarətindədir. Suqovuşanın nəzarətimizə keçməsi ilə Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızın su təminatının yaxşılaşmasına geniş imkanlar yaranıb. Lazımi işlər aparılmalı, zəruri tədbirlər görülməlidir ki, həmin ərazilər qısa zamanda vətəndaşların istifadəsinə verilsin. Nəzərə alsaq ki, dövlət siyasətimizin əsas prioritetlərindən biri keçmiş köçkünlərin tezliklə doğma yurdlarına qayıdışının təmin edilməsidir, insanların məskən salması, əkib-becərməsi üçün su ehtiyatlarının istifadəsi imkanları genişlənməlidir. Zəngin su ehtiyatları azad olunmuş torpaqlara qayıdacaq vətəndaşlarımız üçün böyük üstünlükdür. Qarabağ ərazisində nə qədər bol sulu çaylar var. Əlbəttə, lazım olan yerlərdə su kanalları çəkiləcək, su anbarlarından ora su ötürüləcək ki, əkin sahələrinin suvarılmasında, şəxsi təsərrüfatlarda istifadə olunsun. Ölkədə daha 10 yeni su anbarının tikintisi nəzərdə tutulur. Bütün bunlar dövlətin həm su ehtiyatlarından səmərəli istifadədə, həm də vətəndaşların ehtiyaclarının ödənilməsində maraqlı olduğunu göstərir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Küləkli şəhərin kran təhlükəsi...



## *Ətrafdakı insanlar belə havalarda əndişələnirlər*

*Bakıda tikinti kranı sakinlər üçün təhlükəli vəziyyət yaradıb. Təhlükəli vəziyyət Yeni Günəşli qəsəbəsində müşahidə olunur. Sakinlər bildirirlər ki, kranın qaldırıcı hissəsi uzun olduğundan güclü küləyin təsirindən yellənir. Bu anları görüntüyə alan vətəndaş, kranın hər an aşaraq ətrafdakı yaşayış evlərinə təhlükə yarada biləcəyini söyləyir.*

**Mövcud durumla bağlı "Şərq"ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, tikinti sahəsində istifadə olunan yükqaldıran kranlar elə qurulmalıdır ki, istənilən hava şəraitində aşma təhlükəsi olmasın:** "Əsas məsələlərdən biri kranın yerləşdiyi yerin möhkəm olması və yükqaldırma əməliyyatı zamanı ətrafında yüksək gərginlikli elektrik xətlərinin olmamasıdır. Kran ətrafdakı insanlar üçün təhlükə riski yaratmamalıdır. Kranın ətrafında mühafizə zonasının yaradılması çox vacibdir".

### Elmar Nurəliyev: "Həmin yerlərdə mühafizə zonasının yaradılması çox vacibdir"

*E.Nurəliyev qeyd edib ki, kranların saz və işlək vəziyyətdə olması hər gün kran operator tərəfindən yoxlanılmalı, test edilməli və hər hansı nasazlıq, yaxud nöqsan aşkar edilmədikdən sonra işə başlamalıdır:* "Kranın yükgötürmə qabiliyyətindən artıq çəkidə yüklərin götürülməsi yolverilməzdir. Çünki yükqaldırıcı oxunun radiusu ətrafında təhlükəsiz mühafizə zolağı olmalıdır. Həmin ərazinin tam təhlükəsiz olmasına əmin olmaq lazımdır.

Yükün altından keçmək, yaxud qaldırılma-boşaldılma zamanı kənar müdaxilə etmək olmaz. Kranlarla bağlı qəzalar ən çox aşma və yüklərin dağılması ilə nəticələnir ki, bununla bağlı olan təhlükəsizlik qaydalarına ciddi yanaşmağın lazım olduğuna diqqət yetirmək lazımdır.

Əlverişsiz hava şəraitində, qar, çovğun, duman və küləyin sürəti 15 m/s olanda hündürlükdə açıq havada işçilərin çalışması yolverilməzdir. Elə tikinti sahələri var ki, tikinti gedən ərazidə mühafizə zolağı yaradılmayıb.

Kranların yükqaldırıcı oxu yola çıxır, yaxud ətrafda yaşayış evlərinin üstündə dayanır. Təbii ki, bu, təhlükəsizlik baxımından yolverilməzdir. İnsanların həyat və sağlamlığına təhlükə riski yarada biləcək bütün amillər nəzərə alınmalıdır.

Hər hansı bədbəxt hadisə baş verərsə, insanların zərər çəkməməsi üçün təhlükəsizlik qaydalarına ciddi riayət etmək lazımdır".

**Yeganə Bayramova**

## Dolların milli valyutalara təzyiqi qalmaqdadır

### Ancaq vaksinasiya prosesi də avronun xeyrinə işləyib



**Böyük Britaniya və eləcə də Avropa Birliyi ölkələrində müşahidə edilən iqtisadi bərpa fonunda avro və əksər səbət valyutalar dollara nisbətən möhkəmlənib.**

Dollar dünənki birjada da avroya nisbətən 0.4 faiz dəyər itirib. **Bu sözləri millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov son zamanlar əksər səbət valyutaların dollara nisbətən möhkəmlənməsi və manatın dollar qarşısında son vəziyyəti haqda danışarkən deyib.**

*Millət vəkilinin sözlərinə görə, Avropada intensivləşən vaksinasiya prosesi də avronun xeyrinə işləyib. Bununla belə hələlik dolların səbət valyutalara nisbətən ciddi dəyər itirməsi proqnozlaşdırılmır:* "Aparıcı valyutalara nisbətən dəyər itirən dollar inkişaf etməkdə olan ölkələrin valyutaları ilə müqayisədə güclü mövqeyini qoruyub saxlayıb. Əksər region ölkələrində ABŞ pulunun milli valyutalara təzyiqi qalmaqdadır.

Aparıcı valyutalara nisbətən ABŞ pulunun zəifləməsi manatın dollara nisbətən möhkəmlənəcəyi anlamına gəlməməlidir".

**Aynurə Pənahqızı**

## Boş yerə vəsait xərclənir

### "AMEA büdcə və iqtisadiyyatımıza heç bir fayda vermir"



**"Azərbaycan Milli Elmlər Akademiyasının ölkə iqtisadiyyatına nə xeyri var?! Dövlət büdcəsindən ölkə üzrə elmə ayrılan vəsaitin çox hissəsi AMEA-ya gedir. Niyə?!"- Bunları iqtisadçı-ekspert Pərviz Heydərov deyib.**

**O, "Şərq"ə açıqlamasında tənqidinin kökündəki arqumentlərini göstərdi:**

"Bəziləri kimi statistik rəqəmlər gətirmək fikrində deyiləm. Hər şey məlumdur. Azərbaycanda elmə və təhsilə hər il çox pul ayrılmır. Amma ayrılan vəsait özü də boş yerə gedir. Bir daha sual edirəm, AMEA dövlət büdcəsinə və iqtisadiyyatımıza nə verir?! Pul elə bir şeydir ki, hara və hansı istiqamətə xərcləyirsənsə, ən azı maya dəyəri məbləğində gəlir gətirməlidir. AMEA-nın gəliri nə qədərdir və nədən ibarətdir?! Nəyə görə bu qurum özü-özünü maliyyələşdirə bilmir?! Bu elmi dərəcələr nə məna daşıyır?! Nəyə görə elmi dərəcəyə görə artıq pensiya məbləği ödənilir?! Nəsə icad edib və yaxud araşdırıb tapıbsa, o adama pul gəlməlidir də... Gəlmirsə, deməli, o adamın elmi dərəcə aldığı lazımsız bir şeydir... Qısası, Azərbaycan dünyanın bir parçasıdır. Və əyani şahidik ki, qlobal aləmdə nə baş verirsə, dərhal bizə təsir edir. Elmimiz də və elmi nailiyyətlərimiz də dünya elminə və texnologiyasına mənfəət gətirməlidir. Boş yerə vəsait ayrılmasının nə mənası var?! Təhsil-elm-istehsal-iqtisadi artım... Bunlar zəncirvari şəkildə bir-birilə əlaqədar halqalardır. Ölkəmizdə orta təhsil məktəbləri ali məktəblərlə, ali məktəblər AMEA ilə, AMEA istehsalla və iqtisadiyyat ilə əlaqəli şəkildə mövcud deyil. Bu qurumlara, yəni təhsilə və elmə dövlətin vəsait ayırmasının nə mənası var?!".

**Kənan Novruzov**

# Cəza tədbiri vacibdir

"Belə tədbirlər görülməzsə, gələcəkdə sistemin işində yaranacaq bir sıra problemlər böyük böhranla nəticələnə bilər"




## *İcbari sığorta haqqından yayınanlar cinayət məsuliyyəti daşıyacaq*

İcbari tibbi sığorta haqqını ödəməkdən yayınmaya görə cinayət məsuliyyəti müəyyənləşir. Bu, Milli Məclisdə müzakirəyə çıxarılacaq Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Dəyişikliyə əsasən, icbari tibbi sığorta haqlarını ödəməkdən yayınma cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

**Mövzu ilə bağlı "Şərq"ə danışan "Konstitusiya" Araşdırmalar Fondunun sədri, hüquqşünas Əlimməmməd Nuriyev qeyd edib ki, belə tədbirlər görülməzsə, gələcəkdə sistemin işində yaranacaq bir sıra problemlər böyük böhranla nəticələnə bilər:** "İcbari-tibbi sığortanın artıq bütün ölkə üzrə tətbiqinə başlanılır. Ona görə də belə bir qərar başadüşüləndir. Sığorta haqlarını ödəməkdən imtina halları bütövlükdə bu sistemin özü üçün bir sıra problemlər yarada bilər. Çünki həmin sığorta haqları həm həkimlərin əməkhaqqına ödəniləcək, həm də müəyyən tibbi avadanlıqların alınmasına sərf ediləcək. Bu səbəbdən həmin məsələdə problem yaranması strukturda böyük bir böhranla nəticələnə bilər. Belə halların yaşanmaması üçün indidən müəyyən tədbirlərin görülməsi çox vacibdir. Sözügedən məsələdə sığorta ödəyiciləri daha məsuliyyətli olmalıdır. Düşünürəm ki, vətəndaş qəsdən bu ödənişi etməkdən boyun qaçırıbsa, o zaman həmin şəxsə qarşı cəza tədbiri görülməsi olduqca normaldır. Burada hansısa qeyri-adi məsələ yoxdur. Çünki bu tədbir sistemin daimi və fasiləsiz fəaliyyətini təmin edən şərtlərdən biridir. Əgər bu həyata keçirilməzsə, icbari tibbi sığorta sistemi işləməyə bilər. Həmin hal da çox böyük fəsadlara yol aça bilər. Vətəndaşın sağlamlıq hüququnun bütövlükdə təmin edilməsi üçün icbari tibbi sığorta sisteminin həyata keçirilməsi olduqca böyük önəm daşıyır".

**Aytac Ali**

## Xırdalanda itkin düşən qadının sorağı Türkiyədən gəldi



**Abşeron rayonu, Xırdalan şəhərində itkin düşən 30 yaşlı Əliyeva Cəmilə Telman qızının Türkiyəyə getdiyi məlum olub.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Məlumata görə, araşdırma nəticəsində məlum olub ki, C.Əliyeva aprelin 1-də Türkiyəyə gedib.

## "Topaz"da 25 min manat uduzan oğlan polisə şikayət etdi



**Bakıda polisə şikayət edən şəxsin yalan danışdığı məlum olub.**

"Report"un xəbərinə görə, 19 yaşlı E.Ağayev polisə müraciət edərək naməlum şəxslərin onu və ailə üzvlərini öldürməklə hədələyərək 25 min manat pul tələb etdiyini bildirib.

E.Ağayev həmin vəsaiti naməlum şəxslərə verdiyini deyib.

Peşəkar müstəntiqin araşdırması nəticəsində E.Ağayevin yalan danışdığı müəyyənləşib. Məlum olub ki, o, 25 min manat pulu "Topaz"da uduzub.

*Qeyd edək ki, bilə-bilə yalan xəbərçilik etməyə görə Cinayət Məcəlləsində məsuliyyət nəzərdə tutulur.*

# Daha güvənli qorunmalı idi




*Məlumatların oğurlanmasına feysbuk özü şərait yaradıb*

Feysbuk sosial şəbəkəsi bildirib ki, bu yaxınlarda 530 milyondan çox istifadəçinin şəxsi məlumatlarının oğurlanmasına səbəb onun sisteminə haker hücumu yox, cinayətkarların veb-resurslar yolu ilə şəxsi məlumatlara keçid alması olub. Bu barədə feysbukun rəsmi saytında dərc edilmiş xəbərdə deyilir.

"Anlamaq əhəmiyyətlidir ki, cinayətkarlar informasiyanı bizim sistemlərimizdən haker hücumu yolu ilə yox, məlumatların platformamızdan çıxarılmasının köməyi ilə əldə ediblər" - deyə açıqlamada bildirilir. Bundan əlavə, qeyd edilib ki, sistemin məlumatların itkisinə səbəb olan çatışmazlıq aradan qaldırılıb.

Xatırladaq ki, bir neçə gün öncə feysbuk 533 milyon nəfərdən çox istifadəçisinin şəxsi məlumatları haker forumuna yerləşdirilib. Forumda ABŞ-dan 32 milyon, Böyük Britaniyadan 11 milyon və Hindistandan 6 milyon daxil olmaqla ümumilikdə, 106 ölkədən olan istifadəçilərin tam adları, yerləri, doğum tarixləri, tərcümeyihalları, mobil nömrələri və bəzi hallarda e-poçt ünvanları yayılıb.

**Sözügedən mövzu haqqında "Şərq"ə açıqlama verən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, hər halda problem elə feysbukun özündən qaynaqlanır:** "Feysbukun bir sıra xidmətləri var ki, insanlar, developerlər, müxtəlif şirkətlər, reklam agentlikləri və s. feysbukun data bazasından istifadə edərək əlavə xidmətlər yaradırlar. Yəni buna feysbukun özü şərait yaradıb, pullu xidmət göstərir.

Feysbukun bu xidmətlərindən istifadə edən qurumlar oradan daha həssas məlumatları əldə ediblər. Düşünürəm ki, burada problem daha çox feysbukun özü ilə əlaqəlidir. Yəni o, bu məlumatları daha güvənli qorumalıdır.

Feysbuk istifadəçilərin şəxsi məlumatlarını üçüncü tərəfə verəndə daha çox təhlükəsizlik tədbirləri görməlidir".

*Ekspert, feysbukun əvvəlki fəaliyyətini də diqqətə gətirərək bildirdi ki, adıçəkilən şəbəkə dataları açıq şəkildə satırdı:* "Əvvəllər feysbuk öz istifadəçilərinə aid olan məlumatları üçüncü tərəfə çatırdı. Yəni bunu özü də etiraf edirdi. Amma indiki hal onun texniki-texnoloji çatışmazlıqlarından istifadə edilərək yaradılıb.

Eyni zamanda, bizim sosial şəbəkə istifadəçiləri də öz təhlükəsizliklərinin qayğısına qalmalıdırlar".

**Ağarza Elçinoğlu**

## Qapı-qapı gəzib yoxlayacaqlar

Ev heyvanları da koronavirus daşıyıcısı ola bilər



**COVİD-19 xəstəliyinin ev heyvanları (it və pişik) arasında yayılmasının araşdırılması istiqamətində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu tərəfindən elmi-tədqiqat işlərinə başlanılıb.**

Hazırda Bakı şəhəri və Abşeron rayonu ərazisində yerləşən baytarlıq klinikalarında müayinə olunan, həmçinin heyvan sığınacaqlarında saxlanılan it və pişiklərdən müvafiq nümunələr (qan və yaxma) götürülür.

**Sözügedən məsələ haqqında "Şərq"ə danışan həkim Şahvələd Məmmədov bildirib ki, bu layihənin həyata keçirilməsi çox böyük əhəmiyyət kəsb edir və vacibdir:** "Ev heyvanlarının koronovirus infeksiyasının daşıyıcısı olma təhlükəsi gözlənilir. Hətta təcrübədə də var. Bəzi ölkələrdə bu hal yaşanıb. Bu layihə COVİD-19 törədicisinin heyvanlar arasında yayılması səbəblərinin aşkarlanması və törədicinin ətraf mühitdə dövr etməsinin qarşısının alınması məqsədilə həyata keçiriləcək profilaktik tədbirlər baxımından olduqca əhəmiyyətlidir. Düşünürəm ki, yoluxma riski daha çox evdə kütləvi şəkildə heyvan bəsləyənlər üçün ola bilər. Tək-tük ev heyvanlarının olduğu məkanlarda bunun olmasını güman etmirəm. Ev heyvanlarından götürülən nümunələrdə hər hansı təhlükəli hal müşahidə olunarsa, bu barədə qabaqlayıcı tədbirlər görmək lazım olacaq. Əgər nəticələr daha təhlükəli vəziyyətə gətirib çıxarsa, yaxın zamanda ev heyvanlarının da vaksinasiya edilməsinə başlanıla bilər".

**Aytac Ali**




## 28 min il işləyir

Almazdan yeni batareya hazırlandı

**ABŞ-dakı bir batareya şirkəti, almaz və nüvə tullantılarından hazırlanmış, yenidən şarj edilmədən 28 min ilədək işləyə bilən bir batareya istehsal edib.**

İstehsalçı şirkət Kaliforniyada yerləşən "Nano Diamond Battery" (NDB) batareyanı almaz və nüvə tullantılarından istifadə edərək yaratdıqlarını bildirib. Yenidən doldurulmadan 28 min ilə qədər çalışa bilən batareya kosmik tədqiqat aparmaq üçün əlverişli olacaq. Batareya gücünü almaz və nüvə tullantılarından, xüsusən də təkrar istifadə olunan radioaktiv izotoplardan əldə edəcək. İzotopların yaydığı enerjini udmaq üçün batareyanı panelli nano-almaz təbəqələri əhatə edəcək. İzotopların, ümumiyyətlə, min illər ömrü olduğu üçün və almazlar mükəmməl istilik keçiriciləri olduğundan, batareyanın doldurulmağa ehtiyac olmadan enerji verməyə davam edəcəyi də açıqlanıb. NDB-nin qurucusu Dr. Nima Qolşərifi, batareyanın istehsalının yüz illər istifadə edilə bilməklə yanaşı, nüvə tullantılarından da yaxşı bir şey üçün istifadə etməyin faydalı olacağını qeyd edib. Qolşərifi, 9 il cib telefonlarında və digər elektron cihazlarda istifadə edilə bilən bir almaz batareyası da istehsal etdiklərini açıqlayıb. Həmin batareyanın 2023-cü ildə istifadəyə veriləcəyi açıqlanıb. Batareyanın qiyməti maraqlı olsa da, istehsalında sintetik almaz və nüvə tullantılarının istifadə edilməsi onun ucuz olmayacağını göstərir.

**Ağarza Elçinoğlu**

# Gənc qızın mesajı ürəkləri dağladı

*"Məzar daşıma "bu, ilk ölümüm deyil" yazarsınız"*

İlhan ailəsi qızları Bahriyə Buket İlhanın itkin düşməsiylə bağlı polisə müraciət edib. Müraciət əsasında axtarışa başlayan polis 20 yaşlı Buketin cansız bədənini Konya şəhərinin Ərikli bölgəsindəki Quzuquyu yolunda, Hortu məzarlığı yaxınlığındakı boş ərazidə, başından tapança ilə vurulmuş halda aşkarlayıb. Buketin anası Səlma İlhan "qızımın sevgilisi olduğu iddia edilən adamın bir həftə öncə qızımla tanış edildiyini və məqsədlərinin də qızıma tələ qurmaq olduqlarını hər kəsə duyurmaq istəyirəm" deyib.



Hadisə ilə bağlı şübhəli bilinən 3 nəfər istintaqa cəlb edilib. Buketin dostu olduğu bildirilən Batuhan B, onun dostu Sərkan Ş. və atası Abdullah Ş.Batuhan polisə ifadəsində gənc qızın intihar etdiyini deyib: "Buketlə mən avtomobillə məzarlığın qarşısındakı boş əraziyə gəldik. Buket orada intihar edəcəyini söylədi və çantasından tapança çıxarıb başına dayadı və atəş açdı. Buket qanlar içində yerə yıxıldığında tapançanı əlindən götürüb mən də intihar etmək istədim, ancaq sonra panikaya düşdüm və dostum Sərkana zəng etdim. Sərkan və atası gəldilər. Tapançanı onlara verdim. Onlar da gizlətdilər". İfadələri alınan 3 nəfər barəsində həbs qərarı verilib. Əmniyyət Müdürlüyü Bahriye Buket İlhanın ərazidə tapılmış mobil telefonundakı mesajları da incələyəcək. Buketin sosial media üzərindən paylaşımları da diqqət çəkib: "Bu həyata tutunmaq üçün çox çaba sərf etdim. Kim nə deyirsə, desin, çox uğraşdım. Yenidən sevə bilmək, sevilmək üçün çalışdım, əlimdən gələni etdim. Mən bacarmadım. Amma ümid edirəm ki, siz bacaracaqsınız. Bu həyat mənə çox ağır gəldi. Daşıya bilməyəcəyim yükləri verdi. Bacarmaram dedim, "bacararsan" dedi. Məni sevən, yanımda olan hər kəsdən üzr diləyirəm. Ağladığıma görə əsəbiləşdiniz, küsdüyüm üçün küsdünüz, amma bilin ki, hamısı yardım çağırışları idi. Siz duymadınız. Anam, ən çox səndən üzr istəyirəm, nə olar, məni bağışla! Amma mən daha dözə bilmirəm. Məni bu yaşıma qədər böyütdün. Əgər sən olmasaydın, bura qədər dözə bilməzdim. Haqqınızı halal edin. Hamınızı çox sevirəm, bağışlayın. Xüsusi qeyd: Məzar daşıma "bu, ilk ölümüm deyil" yazın. Vəsiyyətim olsun".

**Buketin anası Səlma İlhan da sosial media hesabında qızının ölümü ilə bağlı mesaj paylaşıb. Ana bu sözləri yazıb:** "Buradan hamıya səslənirəm. Mən illərlə zəhmət çəkib böyütdüyüm qızımı itirdim. Başqalarının övladlarını itirməsini istəmirəm. Övladlarını zalım, ac qurdlara yem etməsinlər. Belə canilərin əlini-qolunu sallayaraq sərbəst gəzməməsi üçün bütün vəzifəlilərdən dəstək gözləyirəm". Qızına tələ qurulduğunu iddia edən ana, mesajının davamında qızının sevgilisi olduğu iddia edilən adamla Buketin ölümündən sadəcə bir həftə əvvəl tanış edildiyini və məqsədlərinin də qızı tələyə salmaq olduğunu yazıb. Ana insanlardan bu faciəyə həssas yanaşmalarını, bilmədən qızını da, onu da ittiham etməkdən çəkinmələrini istəyir: "Ədalət istəyirəm. Gənc qızlar tələyə düşməsin. Məsum övladlarımızın qanı yerdə qalmasın".

**Məlahət Rzayeva**



## “Korona" Elgizi ayıldıb

“Söz verirəm ki, bundan sonra yaxşı qohum olacam”

**Bir müddət öncə koronavirusa yoluxan aparıcı Elgiz Əkbər o dönəm yaşadıqlarından danışıb.**

**”Şərq” xəbər verir ki, Elgiz yaxınları ilə münasibətindən də söz açıb. O, aparıcısı olduğu verilişdə bunları söyləyib:** ”Bütün qohumlarımın qarşısında baş əyirəm. Onların məni çox istədiklərini bilmirdim. Amma etiraf edirəm, mən yaxşı qohum deyiləm. Kiməsə pislik etməmişəm. Lakin aylarla, illərlə danışmadığım, vəziyyətini soruşmadığım insanlar mənə diqqət göstərdilər, davamlı zəng etdilər. Sizə söz verirəm ki, bundan sonra yaxşı qohum olacam. Məsələn, xalam məndən halımı soruşmadı. Çünki inciyib. O gözümün ağı-qarası xalam mənimlə əlaqə saxlamadı. Onun da haqqı var. Ona görə ki, xalamın həyat yoldaşı dünyasını dəyişəndə yasına gedə bilmədim. Efirdə idim, evləri uzaqda idi deyə gedə bilmədim”.

**Samirə**

# Azər Zeynalovun nitqi yerindədir



## *Xalq artisti açıq ürək əməliyyatı keçirib*

"Xalq artisti Azər Zeynalovun nitqinin tutulmasıyla bağlı xəbər yalandır". Bunu Medicina.az -a Xalq artistinin İstanbulda yaşayan oğlu İsmayıl Zeynalov deyib. O, bildirib ki, atası ilə hər gün danışır, səhhəti normaldır:

”Azər müəllim açıq ürək əməliyyatı keçirib. Hər gün onunla danışıram. Dəqiqləşməyən məlumatların yayılması bizi narahat edir. Atamın nitqində problem yoxdur. Nitqi tutulan adamla danışmaq olar?”

İ.Zeynalov əlavə edib ki, həkimlər müalicənin nəticə verdiyini bildirib: ”Səhhətində irəliləyiş var. Tezliklə xəstəxanadan çıxıb, müalicə olunub, səhnəyə qayıdacaq. Yenidən sənəti ilə məşğul olacaq”.

*Qeyd edək ki, dünən kütləvi informasiya vasitələrində xalq artistinin nitqinin tutulması ilə bağlı məlumatlar yayılıb.*

*A.Zeynalov mart ayının 10-da infarkt keçirib. Aprelin 2-də isə Respublika Diaqnostik Mərkəzdə açıq ürək əməliyyatı keçirib .*

## "Çox pisəm"

Koronavirusa yoluxan Nahidə Orucovanın vəziyyəti ağırdır



**Əməkdar artist Nahidə Orucova koronavirusa yoluxub.**

Aktrisa bu haqda ”Elgizlə izlə” verilişinə zəng edərək deyib. O bildirib ki, vəziyyəti ağırdır:

”Harasa getməyə qorxurdum, qorunurdum. Evdə otura-otura virusa yoluxdum. Çox pisəm, elə bil məni döyüblər. Hər yerim ağrıyır, hərarətim var”.

## Hamını günahlandırıb

Afət atası öləndə az qala dəli olsun



**Müğənni Afət Fərmanqızı ”Onun sirri ” verilişində qonaq olarkən həyatı ilə bağlı açıqlamalar verib.**

”Şərq”in məlumatına görə, ifaçı atasının ”Son zəng” günü vəfat etdiyini söyləyib: ”Beyninə qan sızdı, 54 yaşında dünyasını dəyişdi. Həmin gün mən orta məktəbdən məzun olurdum. Onda ətrafımızdakı dörd kənddə ”Son zəng” tədbiri keçirilmədi. O vaxt çox pis olmuşdum. Günlərlə evdən çıxmırdım. Maşın səsi eşidəndə elə bilirdim atam gəlir, tez qapıya qaçırdım. Dəli olmuşdum. Hamını atamın ölümündə günahlandırırdım. Sonda anam bezdi, dedi ki, daha bəsdir, atası ölən görülməyib? Hətta molla yanına belə apardılar. Bir də o, torpağa tapşırılarkən baxıb dedim ki, atamın adını yaşadacam”.

**Samirə**

## Görməmiş müğənnilər...

Tolik yenə müğənnilərə “replika” atdı



**Prodüser Tarix Əliyev (Tolik) türkiyəli aktrisa Ezgi Molanın canlandırdığı bir obrazı paylaşaraq müğənnilərə replika atıb.**

”Şərq” xəbər verir ki, o, videoya bu sözləri əlavə edib: ”Bəzi görməmiş müğənnilər kimidir. İnstaqramda özlərini elit, səviyyəli sayıb, səhifələrdə pul ilə reklam olunanlardır”.

Bir izləyicisi isə aparıcının paylaşımına bu sözləri yazıb: ”90 faizi bu gündədir. Reytinq üçün hamınız onları verilişə də çağırırsınız, reklam da edirsiniz”.

Tolik isə həmin rəyə belə cavab verib: ”Proqrama hamını dəvət etməliyəm. Telekanal mənim atamın deyil. Müğənnilər də kanala pul ödəmirlər. İnstaqram səhifələrinə ödəniş edirlər ki, reklam olunsunlar. Dərd odur”.

**Samirə**

## "Şöşü" aparıcılıq edəcək



**”Bozbash pitures”də Şöşü obrazı ilə tanınan aktyor Ramil Babayev aparıcılığa başlayacaq.**

O, ”Komando ATV” adlı proqrama aparıcılıq edəcək. Veriliş aprelin 11-də ATV-də yayımlanacaq.

O bildirib ki, verilişdə Vətən müharibəsinin iştirakçılarını təqdim edəcək.

# Həsən Həsənov vəfat edib

## *Xərçəng xəstəliyi teatr xadiminin həyatına son qoydu*



Tanınmış teatr xadimi, bir çox teatrlarda məsul vəzifələrdə çalışmış Əməkdar mədəniyyət işçisi Həsən Həsənov dünyasını dəyişib. Bu barədə həmkarı və dostu, Əməkdar artist Sərvər Əliyev "Şərq"ə məlumat verib.

Sərvər Əliyev bildirib ki, Həsən Həsənovun halı qəfildən pisləşib və xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq dünən səhər saatlarında xərçəng xəstəliyindən 71 yaşında vəfat edib.

Məlumat üçün bildirək ki, Həsən Nəsib oğlu Həsənov 1950-ci il iyul ayının 7-də Gürcüstanın Bolnisi rayonunun (Borçalı mahalının) Faxralı kəndində anadan olub. 1957-ci ildə Faxralı kəndində orta məktəbə gedib, 1968-ci ildə orta məktəbi bitirib. 1969-cu ildə Bakı şəhər 1 nömrəli texniki peşə məktəbinə daxil olub. 1970-ci ildə peşə məktəbini fərqlənmə diplomu ilə bitirib, 6-cı dərəcəli çilingər peşəsinə yiyələnib. 1970-ci ildə Bakı Kitabxanaçılıq Texnikumunun Mədəni maarif şöbəsinin ”Özfəaliyyət teatr kollektivinin rəhbəri” fakültəsinə daxil olub. 1971-ci ildə həqiqi hərbi xidmətə çağırıldığı üçün təhsilini yarımçıq qoyaraq həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmət illərində SSRİ-nin yaradılmasının 50 illiyinə həsr olunmuş həvəskar sənət müsabiqəsində iştirak edib, laureat nişanı ilə təltif olunub. Hərbi xidməti bitirdikdən sonra Bakıya gəlib təhsilini davam etdirib və texnikumu fərqlənmə diplomu ilə bitirib. Texnikumda oxuduğu illərdə Əbilov adına Mədəniyyət evinin xalq teatrının truppasına daxil olub. Burada bir neçə əsərdə baş rolun ifaçısı olub. Sabit Rəhmanın ”Toy” komediyasında Surxay, Həsən Seyidbəylinin ”Sən nə üçün yaşayırsan?” pyesində professor Səməd və s. rolları canlandırıb.

1976-cı ildə Mirzə ağa Əliyev adına İncəsənət İnstitutunun Mədəni maarif fakültəsinə daxil olub, 1981-ci ildə institutu bitirib.

Həsən Həsənov 40 illik sənət fəaliyyəti dövründə müxtəlif yerlərdə çalışıb. 1977-1983-cü illərdə Faxralı kənd orta məktəbində musiqi müəllimi işləyib. 1981-1986-cı illərdə A.S.Puşkin adına Tiflis Pedaqoji İnstitutunda ”Azərbaycan dili və ədəbiyyat kafedrası”nda ”İncəsənət Tarixi”ndən mühazirələr oxuyub. 1986-1988-ci illərdə Bolnisi rayonu Cəfərli kənd Mədəniyyət evində direktor vəzifəsində çalışıb. 1988-ci ildə Marneuli şəhər Mədəniyyət evinə bədii rəhbər vəzifəsinə təyin olunub. 1990-cı ildə Gürcüstandan Azərbaycana gəlib. Elə həmin ildə Bakı şəhərində Term zavodunda klub müdiri, altı aydan sonra həmin zavodun Mədəniyyət sarayında bədii rəhbər vəzifəsində çalışıb.

2014-2017-ci illərdə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında direktor müavini vəzifəsində çalışıb. 2017-ci ildən ”Audiokitab” layihəsinin rəhbəridir.

3 may 2011-ci idə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülüb.

***Allah rəhmət eləsin!***

**Turan Etibaroğlu**

# 105 dollardan 57 qurban!

## Saxta tibb bacısı "duzlu su" peyvəndi ilə insanları aldadıb



(Əvvəli səh: 16-da)

Varlıların evinə gedərək koronavirus peyvəndi vuran saxta tibb bacısı polis tərəfindən yaxalanıb. Tükürpədici hadisə Brazilayada yaşanıb. Klaudio Monika Pinhero Torres isimli qadın özünü "tibb bacısı" kimi tanıdaraq insanlara saxta peyvənd vurmuş.

Vurduğu "peyvənd" isə yalnız duzlu sudan ibarət imiş. Milliyet.com-da yer alan xəbərə görə, saxta tibb bacısı qurbanlarını avtomobil qarajında peyvəndləyirmiş. Yayılan şok görüntülər dəhşətin miqyasını gözlər önünə sərir. Hazırda Braziliyada koronavirus pandemiyası kabusa dönmüş vəziyyətdədir. Braziliyada günlük ölüm sayı dünən ilk dəfə olaraq 4 mini ötüb. Xəstəxanalarda boş yer artıq qalmayıb. Bəzi şəhərlərdə xəstələr müalicə olunmalarını gözləyə-gözləyə can verir. Yalnız Braziliyanın deyil, Cənubi Amerikanın ən böyük şəhəri San-Pauloda ölənlərin sayı sürətlə artdığından məzarlıqdakı bəzi köhnə məzarları boşaldıb yeni vəfat edənləri dəfn etmək məcburiyyətində qalıblar. Köhnə məzar yerlərindən 56 cəsəd çıxarılıb. Məzarlardan çıxarılan insan cəsədləri böyük çantalara yerləşdirilərək başqa əraziyə daşınıb. Bu işi görənlərin ağ libaslara bürünməsi də gözdən qaçmayıb. Belə bir vəziyyətdə bir qadının saxta tibb bacısı rolu oynayıb insanları duzla su ilə "peyvənd" etməsi dəhşətli olduğu qədər də insani cinayətdir. Yerli media yazır ki, saxta tibb bacısı duzlu suyun hər dozası üçün 105 dollar alırmış. Bununla o, ümumilikdə 5 min 500 dollar pul qazanıb. "Tibb bacısı" əksər hallarda San-Paulonun varlıların yaşayan Qutierez bölgəsində mənzillərə girdiyi, bəzi hallarda isə qurbanlarına avtomobil qarajındaca "peyvənd" iynəsi vurduğu məlum olub. Braziliya federal polisi qadının ən az 57 nəfəri aldatdığını təxmin edir. Qadın ələ keçdikdən sonra aparılan araşdırmalar və istintaq nəticəsində izlərin Belo Horizontdakı bir daşınma şirkətinə qədər uzandığı üzə çıxıb. Bu, Romulo və Robson Lessa qardaşlarının sahibi olduğu "Saritur" şirkətidir. Saxta tibb bacısının insanları aldadaraq duzlu su "peyvəndi" vurduğu avtobus qarajı bu qardaşlara məxsusdur.

**Məlahət**

## Övladına azərbaycanlı adı qoya bilmirdi

### Gözdən əlil ata 9 aydan sonra istəyinə nail olub

(Əvvəli səh: 16-da)



**Onlar da mənə dedilər ki, lüğətdə "ayıl" sözünün mənasını tapıb onlara göstərim. Belə də elədim, amma yenə bir nəticəsi olmadı. Nəhayət, 9 aydan sonra sənədi verməyə razı oldular", - deyə o bildirib.**

Colani İranda övladlarına türk adı qoymaq istəyən ailələrin probleminin tezliklə həll olunacağına ümid etdiyini də vurğulayıb.

"İranda yaşayan azərbaycanlılar uşaqlarına Azərbaycan, türk adı qoymaq istəyəndə problemlərlə qarşılaşırlar. Belə ailələrin sayı çox olsa da, təzyiqlər ucbatından məsələni mətbuatda qaldıra bilmirlər. Bəzi uşaqların valideynləri dövlət işində çalışdıqlarından bu məsələdə təkid edərlərsə, işdən çıxarılmaqla hədələnirlər. Bəzi ailələr də məcburən sənəddə uşağına fars adı yazdırsalar da, evdə türk adı ilə çağırırlar. Ona görə də uşağın məktəbdə və evdəki adı fərqli olur. Bu, İranda sosial-psixoloji problemlərə yol açan məsələdir. Odur ki, məsələ tezliklə öz həllini tapmalıdır", - deyə azərbaycanlı ata bildirib.



## Məhəllənin hər yerindən ilan çıxır

### "Öldürməyə əlimiz gəlmədi"



**Yağış və selin ardından Bursada ilan həyəcanı yaşanır.**

Bursanın İnegöl bölgəsindəki Qazi məhəlləsində bir binanın bağçasında 2 metr uzunluğunda ilan bina sakini Musa Doğan tərəfindən yaxalanıb. Musa Döğan yaxaladığı ilanı əvvəlcə qəfəsə salıb, sonra isə yaxınlıqdakı boş tarla ərazisinə buraxıb. İlanı binanın həyətində oynayan uşaqlar görüb, qışqırmağa başlayıblar. Seldən sonra tarlalarda çox sayda ilanların peyda olması hazırkı şəraitdə təbii hesab edilir. Musa Doğan "həyətdə oynayan uşaqlar bağırdı, qorxduq və ora yüyürdük. Gördük ki, böyük bir ilandır. Öldürməyə əlimiz gəlmədi. Yazıqdır, o da bir canlıdır. Yaxalayıb qəfəsə saldıq. İncitmədən təbiətə buraxdıq. Zəhərli ilan olduğunu düşünürük" deyib. Yerli bələdiyyə sel fəlakətlərinin aradan qaldırılmasına çalışır, həm də sakinlərə seldən sonra ilanların ortaya çıxa biləcəyi ilə bağlı xəbərdarlıq edib.

**Aytac**

# Kabus ordan başlamışdı

### *90 gündə koronavirusa qalib gələn şəhərə bir də indi baxın!*



2019-cu ilin sonlarında ölümcül koronavirusla dünyaya səs salmış Çinin Vuhan şəhərində hazırda həyat normal şərtlərlə davam edir. Vuhan bunu necə bacardı? Bu şəhərin əhalisinin sayı bəzi ölkələrdə, o cümlədən Azərbaycanda da əhalinin ümumi sayıdır - 11 milyon.

Amma bu şəhər cəmi 90 gün içində koronavirusa qalib gəlməyi bacarıb. Yalnız sərt tədbirlər həyata keçirilməklə. 90 gün müddətində şəhərin əhalisi ancaq zəruri ərzaq ehtiyaclarını ödəməli olduqda evdən çıxıblar. Zəruri olmadan evdən çıxanlara qarşı sərt cəzalar tətbiq edilib. Nəticədə Vuhan hazırda dünyanın bir çox yerindən daha güvənli vəziyyətdədir. Bu günlərdə Vuhandan yeni görüntülər yayılıb. Şəhər gözəlliyi ilə valeh edir. Heç düşünə bilmirsən ki, 1 il əvvəl bura ətrafa dəhşət saçan, "ruhlar şəhəri" adı verilmiş inzibati mərkəz idi.

Vuhan dünya meqapolisləri sırasında 42-ci yerdədir. 3 qəsəbənin birləşməsindən bir şəhər əmələ gəlib. Sürətli inkişaf sayəsində ölkənin ən önəmli ticarət və sənaye şəhərlərindən birinə, eyni zamanda mədəniyyət mərkəzinə çevrilib.

Yantsı çayı və onun bir qolu olan Han çayının birləşdiyi nöqtədə yerləşən Vuhan strateji mövqeyə malikdir. Qərbdə Vuhan "Çinin Çikaqosu" adlandırılır. Vuhanda çox qısa bir zaman içində bu gün ölkənin rəmzləri hesab edilən göydələnlər ucaldılıb. Son 10 ildə sürətlə inkişaf edib.

Çin hökuməti bu gün də koronavirusun Vuhandakı canlı heyvan bazarından yayıldığı iddialarını rədd edir. Çin rəsmiləri virusun qaynağının İtaliya, ya da Hollandiya ola biləcəyini iddia edir.

**Məlahət**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 633

# 105 dollardan 57 qurban!

## Saxta tibb bacısı “duzlu su” peyvəndi ilə insanları aldadıb



**Varlıların evinə gedərək koronavirus peyvəndi vuran saxta tibb bacısı polis tərəfindən yaxalanıb. Tükürpədici hadisə Braziliyada yaşanıb.**

Klaudio Monika Pinhero Torres isimli qadın özünü ”tibb bacısı” kimi tanıdaraq insanlara saxta peyvənd vururmuş. Vurduğu ”peyvənd” isə yalnız duzlu sudan ibarət imiş. Milliyet.com-da yer alan xəbərə görə, saxta tibb bacısı qurbanlarını avtomobil qarajında peyvəndləyirmiş. Yayılan şok görüntülər dəhşətin miqyasını gözlər önünə sərir.

*(Davamı səh: 15-də)*

# Braziliyalı həkim fenomen oldu

## Rəqsləri ilə hamilə qadınlara yardım edir



**Ginekoloq-həkim Fernando Cunha rəqs hərəkətləri ilə körpələrin dünyaya gəlməsinə kömək edir. Həkim bu metodun hamilə qadınları rahatlaşdırdığını söyləyir.**

”Şərq” ”Haberler.com”a istinadən bildirir ki, bu metod qadınlar üçün yalnız emosional rahatlıq təmin etməklə yanaşı, doğuşdakı ağrıları da azaldır və körpənin doğuş mövqeyini tutmasına imkan verir. Bu günə qədər 8 mindən çox doğuşda iştirak edən həkim ataları və tibb bacılarını da rəqs etdirir.

**Yeganə**

# 3D printerdə qəsəbə çap olunacaq



**ABŞ-ın Kaliforniya ştatında Rancho Mirage şəhərciyində inşa olunan 15 yaşayış binasından ibarət qəsəbənin evləri 3D printerdə çap olunmuş panellərdən yığılacaq.**

AZƏRTAC bildirir ki, enerjidən asılı olmayan və ekoloji cəhətdən təmiz evlər texnika və mebellə satılacaq. Yeni məhəllə sakinlərinin ehtiyaclarını elektrik enerjisi ilə tam təmin etmək üçün hər bir kottecin damında günəş panelləri quraşdırılacaq. Məlum olduğu kimi, 3D printerdə çap olunmuş evlərin tikintisi ilə tullantıların istehsalı 99 faiz azalır, eyni zamanda, tikinti materiallarına qənaət edilir. Sahəsi təqribən 134 kvadratmetr olacaq hər evin həyətində hovuz və istirahət sahəsi nəzərdə tutulub.

# Sorğunun nəticələri bəlli oldu

## Britaniyalılar şahzadə Uilyamı növbəti monarx görmək istəyirlər



**Böyük Britaniya əhalisinin əksəriyyəti şahzadə Uilyamı növbəti monarx görmək istəyir.**

”Daily Mirror” qəzeti xəbər verir ki, britaniyalıların bu istəyi ”Deltapoll” sorğusunun nəticələrində əksini tapıb. ”Kraliçanın öz postunu tərk edəcəyi halda onun yerində kimi görmək istərdiniz” sualına cavab olaraq respondentlərin 41 faizi 38 yaşlı şahzadə Uilyamın adını çəkib. Həmçinin rəyi soruşulanların 22 faizi 72 yaşlı vəliəhd şahzadə Çarlzın monarx olmasını istədiyini bildirib, 14 faizi isə Böyük Britaniyada daha monarxiyanın olmaması fikrini dəstəkləyib. Eyni zamanda, respondentlərin 8 faizi şahzadə Harrini, 5 f izi kraliça II Elizabetin qızı şahzadə Annanı, 2 faizi isə kraliçanın oğlu Edvardı bu posta layiq gördüyünü bildirib. Sorğu iştirakçılarının 41 faizi kraliça II Elizabetin ömrünün sonunadək monarx olmasını dəstəkləyib. Martın 31-dən aprelin 1-dək keçirilmiş sorğuda 1,5 min britaniyalı iştirak edib.

*Qeyd edək ki, Böyük Britaniya taxt-tac mirası qaydalarına görə, kraliça II Elizabetdən sonra birinci yerdə onun oğlu Uels şahzadəsi Çarlz, sonra şahzadənin böyük oğlu Uilyam, daha sonra Uilyamın övladları - şahzadələr Corc, Şarlotta və Lui gəlirlər.*



# Övladına azərbaycanlı adı verə bilmirdi

## Gözdən əlil ata 9 aydan sonra istəyinə nail olub





**İranın Ərdəbil şəhərində yaşayan azərbaycanlı Səccad Colaninin yeni doğulmuş qızına azərbaycanlı adı qoymaq üçün apardığı mübarizə 9 aydan sonra uğurla nəticələnib.**

Türk mediasının xəbərinə görə, gözdən əlil küçə musiqiçisi Colani qızı dünyaya gələndən sonra Ərdəbil şəhərindəki müvafiq idarəyə müraciət edərək ona Azərbaycan dilində ”oyanmaq”, ”ayağa qalxmaq” mənasını verən ”Ayıl” adını qoymaq istədiyini bildirsə də, buna icazə verilməyib və körpəyə doğum haqqında şəhadətnamə ala bilməyib. Ancaq Colani mübarizəsini davam etdirib:

”Təxminən üç həftə əvvəl idarəyə getdim və səlahiyyətli şəxslərə dedim ki, əgər Ayılın sənədini verməsəniz, ailəmlə birlikdə bu binanın qarşısında oturaq aksiya keçirəcəyəm.

*(Davamı səh: 15-də)*

# İçindən çıxanlar həyəcan yaratdı

## Tapılan qəbirlərin 2400 illik tarixi var





**Türkiyənin Muğla bölgəsində 2400 illik tarixə malik olan qəbirlər tapılıb.**

”Şərq” Türkiyə mətbuatına istinadən xəbər verir ki, bir inşaatın təməl qazıntısı zamanı ortaya çıxan bu qəbrin içərisində bir çox qədim əşyalar aşkar olunub. Günümüzə qədər bütöv vəziyyətdə qalan əşyalar diqqətlə oradan çıxarılır, təmizlənərək mühafizə olunurlar. Məzardan çıxarılan kişi və qadın skeletlərini də araşdıran qrup nümayəndələri skeletlərin zəngin bir cütlüyə aid olduğunu zənn edirlər. Bölgədə qazıntı işləri aparan arxeoloqlar və muzey işçiləri əşyaların tapıldığı qəbirdən daha çox əşyaların ortaya çıxacağına inanırlar. Buna görə də onlar torpaq altında qaldıqları düşünülən əsərlərin tapılması üçün daha çox səy göstərirlər. Arxeologiya Muzeyinin direktoru Hüseyn Toprak açıqlamasında bildirib ki, tapılan qəbirlərin 2 400 illik bir tarixə malik olduqlarını düşünürlər. Toprak qeyd edib ki, bu günə qədər bu ərazidə 50-dən çox məzar aşkarlanıb. O əlavə edib ki, bölgədə aparılan qazıntılar Bodrumun tarixində mühüm rola malik olacaq.

**Aynurə**

# “Milçəyə belə bənzətdilər”

## Hadisə təhqirlərə məruz qalıb



**Müğənni Hadisə illər əvvəl artıq çəkisi ucbatından tənqidlərə məruz qalmasından bəhs edib.**

Sənətçi bir neçə həftə əvvəl makiyajsız fotoları ilə gündəmə gəlmişdi. O bildirib ki, artıq çəkilərinə görə ən ağır təhqirlərə məruz qalıb:

”Bunun ən ağırına tuş gələn müğənniyəm. ”Roberto Karlos ayaqlı”, ”Çox arıq”, ”Çox çirkinsən”, ”Milçəyə dönmüsən” kimi sözlər dedilər. Dedikləri söz qalmadı. Hamısını yaşadım. Ən pisi isə onların çoxu qadınlar idi. Həmin vaxtlar sosial şəbəkə bu qədər aktiv deyildi. Dəstəyə ehtiyacım olan vaxtlarda dəstək görmədim. Necəyəmsə, elə də görünmək istəyirəm. Fotoşopu çox sevmirəm. Nəyisə bəyənməyəndə, onu düzəltdirmək mümkündür”.